Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 235 (7962) CÜMƏ, 19 oktyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



# İLHAM ƏLİYEV bu gün İzmirdə Azərbaycanın xaricdə ən böyük investisiya layihəsinin açılışını edir

## 6,3 MİLYARD dollarlıq sərmayə



# İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellatinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, dövlət başçısı Azərbaycan ilə İtaliya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayaraq yüksəksəviyyəli qarşılıqlı səfərlərin həyata keçirilməsindən və bütövlükdə siyasi əlaqələrimizin çox yüksək səviyyədə olmasından məmnunluğunu bildirdi. “İqtisadi sahədə İtaliya bizim üçün birinci ticarət tərəfdaşıdır” deyən dövlət başçısı bir çox İtaliya şirkətlərinin Azərbaycanda müxtəlif layihələr icra etdiyini və onlardan birinin bu il İtaliya və Azərbaycan prezidentlərinin iştirakı ilə ölkəmizdə açıldığını bildirdi. Prezident İlham Əliyev ölkələrimizin energetika sahəsində əməkdaşlıq etdiyini, mədəniyyət sahəsində əlaqələrimizin gözəl nəticələr verdiyini dedi. Dövlət başçısı münasibətlərimizin hərtərəfli inkişafı üçün parlamentlərarası əlaqələrin böyük rol oynadığını vurğulayaraq bu əməkdaşlığın həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla həyata keçirildiyini bildirdi. Prezident İlham Əliyev əlaqələrimizin möhkəmlənməsində ölkələrimiz tərəfindən qəbul edilmiş strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin rolunu qeyd etdi. Dövlət başçısı İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellatinin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin strateji tərəfdaşlıq əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini bildirdi.

Qonaqpərvərliyə və xoş sözlərə görə minnətdarlığını bildirən İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellati dedi: “Biz bilirik ki, Azərbaycan həm ənənə, həm də mədəniyyət baxımından çox zəngin ölkədir. Təbii ki, mənim səfərim iki ölkə arasında olan dostluq əlaqələrinin bir daha təsdiqidir”.

İkitərəfli münasibətlərimizin inkişafında ölkələrimiz arasında həyata keçirilən yüksəksəviyyəli səfərlərin önəminə toxunan İtaliya Senatının sədri öz səfərinin də əlaqələrimizin inkişafına töhfə verəcəyinə ümidvar olduğunu bildirdi. Ölkələrimiz və xalqlarımız arasında bir çox oxşarlığın olduğunu bildirən italiyalı qonaq dedi: “Azərbaycanda müxtəlif millətlərin dinc birgə yaşaması onu göstərir ki, İtaliya ilə Azərbaycan bu sahədə də uğurlu əməkdaşlıq həyata keçirə bilərlər”.

Görüşdə sənaye, enerji, neft-kimya, mədəniyyət, infrastruktur, kənd təsərrüfatı, ekologiya sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Sonda xatirə şəkli çəkdirildi.

# *Maria Elisabetta Alberti KASELLATİ:* “Mehriban Əliyevanın həm Birinci vitse-prezident, həm də Heydər Əliyev Fondunun rəhbəri kimi fəaliyyətini yüksək dəyərləndirirəm”

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva oktyabrın 18-də İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellati ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüş Dənizkənarı Milli Parkın ərazisində yenidən qurulan Azərbaycanın “Milan Expo 2015” Ümumdünya sərgisindəki milli pavilyonunda keçirilib.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva İtaliya Senatının sədri Maria Elisabetta Alberti Kasellatini Bakıda görməkdən şad olduğunu bildirdi. Mehriban Əliyeva qonağın İtaliya Senatının sədri kimi ölkəmizə ilk dəfə səfər etdiyini bildirərək, bu səfərin ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

*Ardı 2-ci səh.*

**Azərbaycanın getdikcə artan maliyyə imkanları ölkəmizə indi xaricdə də çox mühüm layihələr həyata keçirmək, ən müxtəlif sahələrə böyük həcmdə sərmayələr yatırmaq imkanı verib.**

Azərbaycan artıq ölkəyə böyük həcmdə valyuta axını həyata keçirən yeni uğurlu qlobal layihələrin müəllifinə çevrilib. Bunu Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda, “Petkim” neft-kimya kompleksinin ərazisində inşa etdiyi “Star” Neft Emalı Zavodunun timsalında da aydın görmək olar.

Bu zavod ölkəmizin Türkiyədə, ümumiyyətlə xaricdə ən böyük investisiya layihəsidir. Həmin investisiyanın Türkiyəyə yatırılması isə tamamilə təbii xarakter daşıyır. Soykökü bir olan Azərbaycanla Türkiyə arasında digər sahələrlə yanaşı, iqtisadi müstəvidə də əməkdaşlığın möhkəmlənməsi dövrün zəruri tələbidir. Eyni zamanda Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin daha da genişləndirilməsi ölkəmizin xarici siyasətinin mühüm tərkib hissəsidir.

Azərbaycan regionda həyata keçirilən qlobal iqtisadi layihələrin icrasında Türkiyənin yaxından iştirakına daim xüsusi diqqət yetirir. Xüsusilə Xəzərin enerji resurslarının dünya bazarlarına nəql olunması sahəsində Azərbaycan ilə Türkiyə arasında davamlı əməkdaşlığın genişləndirilməsi iki dövlətin regionda siyasi-iqtisadi və strateji maraqlarının təmin edilməsinə xidmət edir.

Azərbaycanın neft strategiyasının həyata keçirilməsi Türkiyə ilə strateji tərəfdaşlıq münasibətlərinin daha da dərinləşməsində mühüm əhəmiyyətə malikdir. Bu gün açılışı olacaq “Star” Neft Emalı Zavodu isə strateji tərəfdaşlıq münasibətlərinə yeni töhfədir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında “Star” Neft Emalı Zavodu ilə bağlı məsələyə toxunaraq bunu yüksək qiymətləndirib: *“Biz “Star” neft-ayırma zavodundan hər il yüz milyonlarla dollar gəlir götürəcəyik. Biz bu zavoda çox böyük sərmayə - 6 milyard dollardan çox vəsait qoymuşuq. Yəni həm ölkə daxilində, həm xaricdə qoyulan sərmayələr gələcəkdə bizə böyük xeyir gətirəcək və ölkəmizin dayanıqlı inkişafını təmin edəcək”.*

Xatırladaq ki, “Star” zavodunun təməli 2011-ci il oktyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub.

### Türkiyə iqtisadiyyatına çox mühüm töhfə verəcək “Star” zavodu:

- Hər il 10 milyon ton xam neft emal edəcək;
- 5 milyon tona yaxın dizel yanacağı istehsal olunacaq;
- Hər il 6-8 milyard dollarlıq ticarət həcmi yaradacaq;
- Türkiyənin təyyarə yanacağı ehtiyacını tam ödəyəcək, digər strateji məhsullarda idxal asılılığını aradan qaldıracaq;
- Türkiyə büdcəsinə hər il 1,5 milyard dollar əlavə vəsait yönəldəcək.







Onu da qeyd edək ki, SOCAR-ın 6,3 milyard dollar kapitalla inşa etdiyi “Star” Neft Emalı Zavodunda avqustdan etibarən sınaq məqsədilə xam neft emalına başlanılıb. Bura ilk neft yükü məhz Azərbaycandan olmaqla 80 min ton “Azeri Light” markalı neft çatdırılıb.

SOCAR-ın ötən ay “Rosneft”lə imzaladığı razılaşmaya görə isə, bu ilin dekabr ayından etibarən bir il ərzində “Star” zavodu Rusiyanın 1 milyon ton xam nefti ilə təchiz olunacaq. SOCAR neft emalı zavodunun daha məhsuldar işləməsi üçün Əliağada bir neçə il əvvəl aldığı depolama müəssisəsinə 300 milyon dollarlıq əlavə sərmayə yatıraraq onun tutumunu artırıb.

“Petkim”in xam maddə ilə tələbatının, demək olar ki, hamısını təmin edəcək “Star” zavodu yeni iş yerlərinin yaradılmasına da töhfə verəcək. “Star” Neft Emalı Zavodunda hər il 10 milyon ton xam neft emal ediləcək. Zavodda ildə 1,6 milyon ton nafta, 1,6 milyon ton təyyarə yanacağı, 4,8 milyon ton azkükürdlü dizel yanacağı, 700 min ton neft koksu, 420 min ton qarışıq ksilen və 160 min ton kükürd istehsal olunacaq. Zavod tam gücü ilə gələn ilin yanvar ayından etibarən fəaliyyət göstərəcək.

“Star” Azərbaycana valyuta axınını təmin edəcək müəssisə olmaqla yanaşı, Türkiyənin dövlət büdcəsinə hər il 1,5 milyard dollarlıq töhfə verəcək. Belə ki, zavod “Petkim” neft-kimya kompleksinin nafta və qarışıq ksilenə olan tələbatını tam ödəyəcək. Yuxarıda qeyd olunduğu kimi, “Star” zavodu 5 milyon tona yaxın dizel yanacağı istehsal etmək imkanına malikdir və beləliklə, Türkiyədə bu məhsulun idxalı 40 faizə düşəcək.

Həmçinin mayeləşdirilmiş neft, qazın idxal səviyyəsi də 70 faizə enəcək. Zavod ildə 1,6 milyon ton təyyarə yanacağı istehsal etməklə Türkiyənin tələbatını tam ödəyəcək. “Star” neftin qiymətindən asılı olaraq hər il 6-8 milyard dollarlıq ticarət həcmi formalaşdıracaq. Bütün bunlar Azərbaycanın Türkiyəyə böyük töhfəsi də hesab edilə bilər.

Onu da qeyd edək ki, ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin dinamik şəkildə inkişafının göstəricisi olan qlobal iqtisadi layihələr, xüsusən də Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum, TANAP qaz kəmərləri və Bakı-Tbilisi-Qars dəmir yolu layihələrinin məntiqi ardıcıllığı kimi “Star” zavodunun işə düşməsi həm də təbii xarakter daşıyır. Bu, eyni zamanda göstərir ki, Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələr çox uğurla inkişaf edir.

Azərbaycan və Türkiyənin ikitərəfli iqtisadi əməkdaşlığı və sərmayələrə verdikləri böyük əhəmiyyət ölkələrimizin inkişafını şərtləndirən amillərdəndir. 2020-ci ilədək Azərbaycanın Türkiyə iqtisadiyyatına yatıracaq sərmayələrin həcmi 20 milyard dollara çatacaq ki, bunun da 15 milyard dolları SOCAR-ın payına düşəcək.

Bütün bunlar ölkələrimiz arasında münasibətlərin daha da güclənməsinə əlavə töhfələr verir. Bununla yanaşı, aydın görünür ki, Türkiyə və Azərbaycan özlərinin iqtisadi, enerji imkanlarından, eləcə də geosiyasi mövqeyindən daha səmərəli şəkildə istifadə edirlər. Hazırda bölgənin uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsində aparıcı rol oynayan və iki ölkə arasındakı münasibətlərin çox vacib elementlərindən olan neft və qaz layihələri təkcə regionda deyil, eləcə də bütün dünyada dövlətlərimizin nüfuzunu əhəmiyyətli dərəcədə artırıb.

Bu layihələr Azərbaycanın, Türkiyənin, eləcə də digər ölkələrin enerji təhlükəsizliyi üçün böyük təminat verir. Eyni zamanda, bütün bunlar qarşıdakı dövr ərzində Azərbaycanın, Türkiyənin daha güclü ölkə halına gəlməsinin mühüm zəmini qismində çıxış edir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Azərbaycan ilə Türkmənistan arasında əlaqələr zəngin tarixə malikdir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredovu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Türkmənistan arasında əlaqələrin zəngin tarixə malik olduğunu bildirdi və bu gün ikitərəfli münasibətlərimizin bütün sahələri əhatə edərək uğurla inkişaf etdiyini dedi. Ölkələrimizin ikitərəfli və çoxtərəfli formatda fəal əməkdaşlıq həyata keçirdiyini vurğulayan Prezident İlham Əliyev son illər birgə səylər nəticəsində əlaqələrin yeni səviyyəyə yüksəldiyini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan ilə Türkmənistan arasında siyasi sahədə fəal qarşılıqlı fəaliyyətin mövcud olduğunu dedi, ölkələrimizin digər istiqamətlərdə, o cümlədən nəqliyyat, energetika, mədəniyyət sahələrində də əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, bütün bunlar bizim uzun əsrlik qardaşlıq əlaqələrimizə əsaslanır və biz münasibətlərimizin gələcəyinə nikbinliklə baxırıq. Dövlətimizin başçısı Azərbaycan ilə Türkmənistan və eləcə də xalqlarımız arasında əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirərək Rəşid Meredovun səfərinin qardaşlıq münasibətlərimizin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyini dedi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov, ilk növbədə, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun salamlarını və ehtiramını dövlətimizin başçısına çatdırdı. Xarici işlər naziri Rəşid Meredov bildirdi ki, Türkmənistan dövlətinin başçısı Prezident İlham Əliyevi Azərbaycanın Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik etmək barədə tapşırıq verib və o, Qurbanqulu Berdiməhəmmədovun təbrik məktubunu dövlətimizin başçısına təqdim etdi.

Göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da salamlarını və ən səmimi arzularını Türkmənistan Prezidentinə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanın və Türkmənistanın dövlət başçıları arasında mövcud olan dostluq əlaqələri ölkələrimizin münasibətlərinin inkişafında mühüm amildir.

Görüşdə əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586, № 12, maddə 835; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 237, 240, 244, № 8, maddə 463; 2004, № 6, maddə 399; 2005, № 4, maddə 278; 2006, № 11, maddə 929; 2007, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddələr 1197, 1218; 2008, № 6, maddə 462, № 7, maddələr 602, 607; 2010, № 3, maddə 171, № 4, maddə 275, № 7, maddə 591; 2011, № 2, maddələr 70, 71, № 6, maddə 473, № 7, maddə 600, № 12, maddə 1107; 2012, № 5, maddə 406, № 11, maddələr 1056, 1063; 2013, № 8, maddə 889; 2015, № 10, maddə 1107, № 11, maddə 1271; 2016, № 6, maddələr 981, 1000; 2017, № 6, maddə 1058, № 12 (I kitab), maddə 2268; 2018, № 5, maddə 881, № 7 (I kitab), maddə 1422) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci və 2.2-ci maddələrə "çəkilməsi" sözündən sonra ", habelə cinayət-hüquqi xarakterli digər tədbirlərin tətbiqi" sözləri əlavə edilsin.

2. 6-cı maddədən "məhkumlara" sözü və "məhkəmənin bu hökmü dəyişən" sözləri çıxarılsın.

3. 7-ci maddəyə birinci halda "məhkumların" sözündən sonra "və barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilən hüquqi şəxslərin" sözləri əlavə edilsin.

4. III fəslin və 15-ci maddənin adına "Cəzanı" sözündən sonra "və cinayət-hüquqi xarakterli digər tədbirləri" sözləri əlavə edilsin.

5. 15.1-ci maddədə "və əmlak müsadirəsi növündə cəzalar" sözləri "növündə cəza və xüsusi müsadirə növündə cinayət-hüquqi tədbiri" sözləri ilə əvəz edilsin.

6. Aşağıdakı məzmunda 15.1-1-ci və 15.1-2-ci maddələr əlavə edilsin:

"15.1-1. Hüquqi şəxslərə tətbiq edilən cərimə və xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirlər hüquqi şəxsin olduğu yerin icra məmuru tərəfindən icra edilir.

15.1-2. Hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğulolma hüququndan məhrumetmə və hüquqi şəxsi ləğvetmə növündə cinayət-hüquqi tədbirlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən icra edilir.".

7. XVIII fəslin adından ", əmlak müsadirəsi" sözləri çıxarılsın.

8. 160-165-ci maddələr ləğv edilsin.

9. Aşağıdakı məzmunda VIII bölmə əlavə edilsin:

**"VIII bölmə**
**Cinayət-hüquqi tədbirlərin icrası**
**XXII fəsil**
**Xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirinin icrası**

**Maddə 183. Xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirinin icrası qaydası**

183.1. Xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirinin tətbiq edilməsi barədə yekun qərar çıxarmış məhkəmə həmin qərar qanuni qüvvəyə mindikdən sonra onun surətini, qərarın icrası barədə göstərişi və əmlakın siyahısının surətini icra məmuruna göndərir və bu barədə müvafiq icra hakimiyyəti orqanına məlumat verir.

183.2. Məhkəmənin yekun qərarı ilə xüsusi müsadirə edilməli əmlakın kimə mənsub olması haqqında mübahisə mülki məhkəmə icraatı qaydasında həll edilir.

**Maddə 184. Xüsusi müsadirə cinayət-hüquqi tədbirinin icrası zamanı icra məmurunun vəzifələri**

184.1. İcra məmuru məhkəmənin yekun qərarının surətini, qərarın icrası barədə göstərişi aldıqdan sonra dərhal əmlak siyahısında göstərilən əmlakın mövcudluğunu yoxlayır.

184.2. Müsadirə edilən əmlak plomblanır və ya möhürlənir və bu barədə tərtib edilmiş müvafiq siyahıda qeydlər edilir.

184.3. Müsadirə edilən əmlakın saxlanılması üçün icra məmuru tərəfindən tədbirlər həyata keçirilməlidir.

**Maddə 185. Xüsusi müsadirə edilməli əmlakla əlaqədar digər şəxslərin vəzifələri**

185.1. Xüsusi müsadirə edilməli əmlak hüquqi və ya fiziki şəxslərdə, yaxud dövlət qurumunda olarsa, onlar bu barədə məhkəməyə və ya müvafiq icra hakimiyyəti orqanına xəbər verməlidirlər.

185.2. Hüquqi və fiziki şəxslər, həmçinin dövlət qurumları onlara saxlanılmaq üçün verilən müsadirə edilən əmlakın qorunub-saxlanılmasını təmin etməlidirlər.

185.3. Müsadirə edilən əmlakın gizlədilməsinə, israf edilməsinə, özgəninkiləşdirilməsinə və ya dəyişdirilməsinə görə təqsirli şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 186. Xüsusi müsadirə edilmiş əmlakın müvafiq icra hakimiyyəti orqanına verilməsi**

186.1. Barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilən şəxsin müsadirə edilmiş əmlakı, bu əmlak barəsində irəli sürülən bütün tələblər qanunla müəyyən edilmiş qaydada təmin edildikdən sonra müvafiq icra hakimiyyəti orqanına verilir.

186.2. Xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 187. Məhkəmənin yekun qərarının icrasından sonra aşkar edilmiş əmlakın müsadirəsi**

Xüsusi müsadirə cinayət-hüquqi tədbiri icra edildikdən sonra barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilən şəxsin xüsusi müsadirə olunmalı olan digər əmlakı aşkar edildiyi hallarda, icra məmuru yekun qərar çıxarmış məhkəməyə və ya yekun qərarın icra edildiyi yerin məhkəməsinə həmin əmlakın müsadirə edilməsi barədə təqdimat verir.

**XXIII fəsil**
**Hüquqi şəxslər barəsində tətbiq edilən cinayət-hüquqi tədbirlərin icrasının xüsusiyyətləri**

**Maddə 188. Cərimə və xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirin icrası qaydası**

188.1. Hüquqi şəxslər barəsində tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbir Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 15-2-ci fəslinin xüsusiyyətləri nəzərə alınmaqla, bu məcəllənin IV fəslinə uyğun olaraq icra edilir.

188.2. Hüquqi şəxslər barəsində tətbiq edilən xüsusi müsadirə növündə cinayət-hüquqi tədbir Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 15-2-ci fəslinin xüsusiyyətləri nəzərə alınmaqla, bu məcəllənin XXII fəslinə uyğun olaraq icra edilir.

**Maddə 189. Hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cinayət-hüquqi tədbirin icrası qaydası**

189.1. Hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cinayət-hüquqi tədbirin tətbiq edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş yekun qərarının surəti icra edilməsi üçün dərhal hüquqi şəxsin olduğu yerin icra məmuruna göndərilir.

189.2. Hüquqi şəxs müəyyən fəaliyyət növünü lisenziya və ya icazə əsasında həyata keçirdikdə, icra məmuru məhkəmə qərarının surətini 3 (üç) gün müddətində lisenziya (icazə) verən orqana göndərir. Həmin orqan qərarın surətini aldığı gündən 3 (üç) gün müddətində lisenziyanı (icazəni) ləğv edir və bu barədə icra məmuruna məlumat verir.

189.3. Hüquqi şəxs müəyyən fəaliyyət növünü lisenziya və ya icazə əsasında həyata keçirmədikdə, icra məmuru 3 (üç) gün müddətində məhkəmə qərarının surətini hüquqi şəxslərin dövlət reyestrinə müvafiq fəaliyyət növü ilə məşğul olma hüququndan məhrum etmə barədə qeydin 10 (on) gün ərzində daxil edilməsi üçün müvafiq icra hakimiyyəti orqanına göndərir. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən müvafiq dəyişiklik dövlət qeydiyyatına alındıqdan sonra 2 (iki) gün müddətində icra məmuruna məlumat verilir.

**Maddə 190. Hüquqi şəxsi ləğv etmə növündə cinayət-hüquqi tədbirinin icrası qaydası**

190.1. Hüquqi şəxsi ləğv etmə haqqında məhkəmənin yekun qərarı ilə ləğv etmə komissiyasına (təsviyəçiyə) hüquqi şəxsin ləğvini həyata keçirmək vəzifələri həvalə olunur. Həmin qərar qanuni qüvvəyə mindikdən dərhal sonra onun surəti icra edilməsi üçün müvafiq icra hakimiyyəti orqanına, habelə cinayət-hüquqi tədbirin icrasına nəzarət edilməsi üçün icra məmuruna göndərir.

190.2. Hüquqi şəxsin ləğvi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirilir.

190.3. Hüquqi şəxsin ləğvi başa çatdıqdan sonra müvafiq icra hakimiyyəti orqanı 3 (üç) gün müddətində bu barədə yekun qərarı çıxarmış məhkəməyə və cinayət-hüquqi tədbirin icrasına nəzarəti həyata keçirən icra məmuruna məlumat verir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 oktyabr 2018-ci il*

*Maria Elisabetta Alberti KASELLATİ:*

# "Mehriban Əliyevanın həm Birinci vitse-prezident, həm də Heydər Əliyev Fondunun rəhbəri kimi fəaliyyətini yüksək dəyərləndirirəm"

*Əvvəli 1-ci səh.*





Azərbaycan ilə İtaliya arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını deyən Birinci vitse-prezident əlaqələrimizin bir çox sahələri əhatə etdiyini vurğuladı.

"Əminəm ki, Bakıya səfəriniz çərçivəsində keçirəcəyiniz görüşlər gələcəkdə ölkələrimiz arasındakı potensialdan daha səmərəli istifadə etməyə imkan yaradacaq" - deyən Mehriban Əliyeva Maria Elisabetta Alberti Kasellatinin Azərbaycana səfərinin uğurlu keçəcəyinə ümidvar olduğunu vurğuladı.

Qonaqpərvərliyə görə təşəkkürünü bildirən İtaliya Senatının sədri bu səfərin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə şərait yaradacağını söylədi. İtaliya Senatının sədri kimi ölkəmizə ilk dəfə gəldiyini bir daha qeyd edən qonaq müxtəlif sahələrdə qurulan əlaqələrdən məmnunluğunu ifadə etdi. Xanım Maria Elisabetta Alberti Kasellati Azərbaycana səfərinin xüsusilə siyasi, sosial və mədəni sahələrdə əlaqələrin inkişafına kömək edəcəyini diqqətə çatdırdı. "Sizin İtaliyaya marağınız və sevginiz bizi qürurlandırır" - deyən qonaq Mehriban Əliyevanın həm Birinci vitse-prezident, həm də Heydər Əliyev Fondunun rəhbəri kimi fəaliyyətini yüksək dəyərləndirdi.

Görüş çay süfrəsi arxasında davam etdirildi. Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və İtaliya Senatının sədri Maria Elisabetta Alberti Kasellati "Milan Expo 2015" Ümumdünya sərgisində nümayiş etdirilən milli pavilyonumuza baxdılar.

"Azərbaycan: biomüxtəlifliyin xəzinəsi" adlandırılan dördmərtəbəli milli pavilyonda ölkəmizin mətbəxini, musiqisini və mədəniyyətini təbliğ edən instalyasiyalar quraşdırılıb, müxtəlif iaşə xidməti göstərmək üçün binada müvafiq şərait yaradılıb. Heydər Əliyev Fondunun və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycan ilk dəfə "Milan Expo 2015" Ümumdünya sərgisində milli pavilyonla iştirak edib. Bu layihə Azərbaycanın tarixinin və mədəni irsinin, ölkənin zəngin ekoloji, enerji potensialının və nadir biomüxtəlifliyinin beynəlxalq miqyasda tanıdılması istiqamətində böyük rol oynayıb. 2015-ci il mayın 31-dən oktyabrın 31-dək davam edən "Milan Expo" sərgisində pavilyonumuzda 3 milyon 250 mindən çox izləyici olub. Xarici mətbuat, o cümlədən İtaliyanın aparıcı kütləvi informasiya vasitələri milli pavilyonun tikinti və dizayn işlərinin yekunlaşdırılmasına görə Azərbaycanın lider olduğunu qeyd ediblər və milli pavilyonumuz "Milan Expo" sərgisinin incisi adlandırılıb. Sərginin keçirildiyi müddətdə Azərbaycanın milli pavilyonu "Milan Expo 2015"in Təşkilat Komitəsi tərəfindən "Dizayn və materiallar" nominasiyası üzrə qalib elan olunub. Azərbaycanın milli pavilyonu Şimal və Cənub, Şərq və Qərb arasında körpü rolunu oynayan, qədim tarixi, zəngin mədəniyyəti ilə seçilən ölkəmizin bənzərsiz təbii və mədəni xəzinəsini əks etdirir. Milli pavilyonla tanışlıqdan məmnunluğunu bildirən İtaliya Senatının sədri onun şəhərimizə xüsusi gözəllik verdiyini vurğuladı.

# İtaliya Senatının sədri ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





Azərbaycanda səfərdə olan İtaliya Senatının Sədri xanım Maria Elisabetta Alberti Kasellatinin başçılıq etdiyi nümayəndə heyəti oktyabrın 18-də Fəxri xiyabanda xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub. AZƏRTAC xəbər verir ki, sonra Şəhidlər xiyabanına gedən nümayəndə heyəti ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə gül dəstələri düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanını "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1188-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

"Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 231; 2000, № 3 (I kitab), maddə 159; 2008, № 7, maddə 611, № 8, maddə 719, № 10, maddə 896; 2009, № 2, maddə 71, № 12, maddələr 977, 987; 2011, № 7, maddə 633; 2012, № 6, maddə 545; 2014, № 7, maddə 791, № 11, maddə 1408, № 12, maddə 1570; 2015, № 1, maddə 20; 2016, № 6, maddə 1050) 2-ci hissəsinin on dördüncü abzasına "səlahiyyətlərini" sözündən sonra "dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərə münasibətdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi, praktik tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olan işçilərə münasibətdə isə" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2018-ci il*

# Azərbaycan ilə İtaliya arasında strateji tərəfdaşlıq əlaqələrinin əhəmiyyətindən danışılıb



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov oktyabrın 18-də İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellati ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra İtaliya ilə münasibətlərin inkişafına xüsusi önəm verdiyini, ölkələrimiz arasında müxtəlif sahələrdə çox yaxşı əməkdaşlıq əlaqələrinin qurulduğunu qeyd edən Novruz Məmmədov artıq ikitərəfli münasibətlərin müxtəlif sahələrdə sürətlə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə çatdığını deyib.

Əməkdaşlığımızın inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin rolundan danışan Novruz Məmmədov bildirib ki, bu il İtaliya Prezidenti Sercio Mattarellanın ölkəmizə, Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın İtaliyaya səfərləri, aparılan səmərəli danışıqlar ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin daha da genişlənməsinə mühüm töhfə verir.

Mədəni əlaqələrin xalqları yaxınlaşdırdığını vurğulayan Baş nazir Novruz Məmmədov Azərbaycan xalqının tarixən İtaliya mədəniyyətinə böyük maraq göstərdiyini diqqətə çatdırıb. Baş nazir İtaliya operasının dünyadakı şöhrətindən danışaraq Azərbaycanın da Şərqdə ilk operanın məkanı kimi tanındığını xatırladıb.

Bakının "Expo 2025" Ümumdünya Sərgisinə evsahibliyi üçün namizədliyinin irəli sürüldüyünü deyən Novruz Məmmədov İtaliyanın Azərbaycanın namizədliyini dəstəkləyəcəyinə ümidvar olduğunu bildirib.

Xanım Maria Elisabetta Alberti Kasellati Azərbaycan ilə İtaliya arasında müxtəlif istiqamətlər üzrə, o cümlədən siyasi, iqtisadi, humanitar sahələrdə yaxşı əlaqələrin qurulduğunu, əməkdaşlığımızın strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini qeyd edib.

Senatın sədri Heydər Əliyev Fondunun İtaliyada mədəni və humanitar sahələrdə, o cümlədən tarixi abidələrin bərpası ilə bağlı həyata keçirdiyi layihələrin ölkəsində yüksək dəyərləndirildiyini deyib, humanitar əlaqələrin daha da genişləndirilməsinin önəmini xüsusi vurğulayıb.

Maria Elisabetta Alberti Kasellati İtaliya şirkətlərinin Azərbaycanda bir sıra iqtisadi layihələrdə uğurla iştirak etdiyini söyləyib. Senatın sədri bildirib ki, İtaliya şirkətləri Azərbaycanda nəqliyyat, kənd təsərrüfatı, müdafiə sənayesi, infrastruktur və digər sahələrdə fəaliyyət göstərməkdə maraqlıdır.

Azərbaycanın Avropanın, o cümlədən İtaliyanın enerji təhlükəsizliyindəki rolunu yüksək qiymətləndirən qonaq deyib ki, "Cənub qaz dəhlizi" gələcəkdə ölkələrimizin iqtisadi əməkdaşlığının daha da genişlənməsinə xidmət edir.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

# Azərbaycanın Baş naziri Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov oktyabrın 18-də Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Türkmənistanın qarşıdan gələn milli bayramı - Müstəqillik Günü münasibətilə Rəşid Meredovu təbrik edən Novruz Məmmədov Azərbaycan ilə Türkmənistan arasında müxtəlif sahələrdə əlaqələrin inkişaf etdiyini bildirib. Baş nazir Novruz Məmmədov ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğunu diqqətə çatdırıb, Rəşid Meredovun səfərinin əlaqələrimizin genişləndirilməsi baxımından önəmli olduğunu vurğulayıb. "Siyasi sahədə əlaqələrimiz inkişaf edir. Azərbaycan-Türkmənistan hökumətlərarası komissiyasının, parlamentlərarası dostluq qruplarının, səfirliklərimizin fəaliyyəti ilə yanaşı, bu cür səfərlər münasibətlərimizin dərinləşməsinə töhfə verir" - deyə Baş nazir Novruz Məmmədov vurğulayıb.

İki ölkə arasında iqtisadi sahədə əlaqələri birgə səylərlə daha da inkişaf etdirmək üçün yaxşı potensialın olduğunu qeyd edən Azərbaycanın Baş naziri dəmir yolu və dəniz nəqliyyatı vasitəsilə yükdaşımaları, energetika sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğunu bildirib.

Bakıya ölkələrimizin xarici işlər nazirlikləri arasında ikitərəfli məsləhətləşmələrin aparılması məqsədilə gəldiyini deyən Rəşid Meredov qardaş Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edib, ölkəmizin Dövlət Müstəqilliyi Günü münasibətilə təbriklərini çatdırıb.

Görüşdə Azərbaycan ilə Türkmənistanın qarşılıqlı olaraq mədəniyyət günlərinin və birgə xalça sərgilərinin keçirilməsi imkanları ilə bağlı, həmçinin maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# *Maria Elisabetta Alberti KASELLATİ:*

# "İtaliya Azərbaycanı özünün ən sadiq tərəfdaşlarından biri hesab edir"



Oktyabrın 18-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov İtaliya Respublikası Senatının Sədri xanım Maria Elisabetta Alberti Kasellatinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov İtaliya Senatı Sədrinin Azərbaycana ilk rəsmi səfərinin ölkələrimiz arasındakı əlaqələrin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib. Bildirib ki, İtaliya Azərbaycan üçün Avropada və ümumiyyətlə, dünyada ən önəmli tərəfdaşlardan biridir. Əlaqələrin inkişafında dövlətlərimizin başçılarının qarşılıqlı səfərlərinin çox böyük rolu var.

Milli Məclisin Sədri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu yaxınlarda İtaliyaya etdiyi rəsmi səfərin önəmini vurğulayaraq, bu səfər çərçivəsində Romadakı Custiniani sarayında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə və Azərbaycan ilə İtaliya arasında strateji tərəfdaşlıq münasibətlərinə dair konfransın keçirildiyini xatırladıb və bunu ölkələrimizin bir-birinə hörmətinin bariz nümunəsi kimi qiymətləndirib.

İtaliya-Azərbaycan əlaqələrinin möhkəm hüquqi baza üzərində qurulduğunu deyən Oqtay Əsədov diqqətə çatdırıb ki, ölkələrimiz arasında bu günədək 44 ikitərəfli sənəd imzalanıb. Bu sənədlərin ən önəmlilərindən biri "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq haqqında" Birgə Bəyannamədir.

İtaliyanın Azərbaycanın ən böyük ticarət tərəfdaşı olduğunu bildirən parlamentin Sədri deyib ki, TANAP, TAP, "Cənub qaz dəhlizi" layihələri əlaqələrimizin daha da inkişaf edəcəyinə inamı artırır. Hazırda Azərbaycanda 50-dək italyan şirkəti fəaliyyət göstərir. İnanırıq ki, bu şirkətlərin sayı getdikcə çoxalacaq.

Oqtay Əsədov qeyd edib ki, ölkələrimiz arasında mədəni, humanitar əlaqələr də inkişaf edir. Heydər Əliyev Fondu iki ölkə arasında siyasi, mədəni əlaqələrin möhkəmlənməsində böyük rol oynayır.

Sədr Azərbaycan-İtaliya parlamentlərarası əlaqələrinin yaxşı səviyyədə olduğunu vurğulayıb, dostluq qruplarının işini yüksək qiymətləndirib.

Görüşdə Milli Məclisin sədri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də danışıb. Bildirib ki, 2010-cu ildə İtaliya Senatının Cənubi Qafqazda vəziyyət haqqında qətnaməsi, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi bizim üçün çox əhəmiyyətlidir. O, İtaliya Senatının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasına gələcəkdə də öz dəstəyini verəcəyinə inamını ifadə edib.

İtaliya Senatının sədri Maria Elisabetta Alberti Kasellati bildirib ki, bu səfər ölkələrimizin parlamentlərarası əlaqələrinin inkişafına töhfə verəcək. O deyib ki, İtaliya Azərbaycanın malik olduğu parlament ənənələrinə xüsusi önəm verir. 1918-ci ildə Azərbaycan müsəlman Şərqində ilk parlament yaradıb. Biz 1918-ci ildə Azərbaycanda qadınlara seçki hüququnun verilməsindən şərəf duyuruq. Siz bizdən də əvvəl bu hüququ qadınlara vermisiniz.

Sədr sentyabrda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə Romada keçirilən görüşünü xatırladıb, müzakirə olunan məsələlərin önəmini qeyd edib. O söyləyib ki, ölkələrimiz arasındakı əməkdaşlıq möhkəm dostluq əlaqələrinin qurulmasında xüsusi rol oynayır.

Maria Elisabetta Alberti Kasellati İtaliya Respublikası Prezidentinin bu yaxınlarda Azərbaycana etdiyi səfərin strateji tərəfdaşlığımızı daha da möhkəmləndirəcəyinə əminliyini ifadə edib. O vurğulayıb ki, İtaliya Azərbaycanı özünün ən sadiq tərəfdaşlarından biri hesab edir. İtaliya Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin daha da inkişafı üçün əlindən gələni etməyə hazırdır. Azərbaycan öz resursları ilə İtaliyanın energetika təchizatında xüsusi rol oynayır. Sədr Azərbaycanda fəaliyyət göstərən italyan şirkətlərinin təkcə neft-qaz deyil, eləcə də infrastruktur, kənd təsərrüfatı və iqtisadiyyatın digər sahələrinə də cəlb edilməsinin vacibliyini vurğulayıb.

Ölkələrimiz arasındakı mədəni əlaqələrdən söz açan Maria Elisabetta Alberti Kasellati Heydər Əliyev Fondunun İtaliyadakı fəaliyyətinin məmnunluq doğurduğunu söyləyib.

# Azərbaycan nümayəndə heyəti Pekində Tayhu Dünya Mədəniyyət Forumunda iştirak edir





Çinin paytaxtı Pekində Tayhu Dünya Mədəniyyət Forumunun 5-ci illik iclası işə başlayıb.

AZƏRTAC xəbər verir ki, "Sivilizasiyalararası dialoq: bəşəriyyət üçün ortaq gələcəkli cəmiyyətin qurulması" mövzusunda keçirilən builki iclasda dünyanın 40-dan çox ölkəsindən dövlət rəsmiləri, elm adamları, ictimai xadimlər, mədəniyyət sahəsinin fəalları daxil olmaqla, ümumilikdə, mindən çox nümayəndə iştirak edir.

Azərbaycanı bu beynəlxalq forumda Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-icra katibi Əli Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir.

İclasın açılış mərasimində çıxış edən Ümumçin Xalq Nümayəndələri Yığıncağının (parlament) sədr müavini Van Çen Çin Xalq Respublikasının Sədri Si Cinpinin forum iştirakçılarına müraciətini oxuyub. O, forumun müxtəlif mədəniyyətlərin mübadiləsi vasitəsilə birgə gələcəyin qurulmasına dair müzakirələrin aparılması üçün yaxşı platforma olduğunu deyib.

Baş nazirin müavini Əli Əhmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tayhu Dünya Mədəniyyət Forumunun 5-ci illik iclasının iştirakçılarına müraciətini oxuyub.

Azərbaycan-Çin münasibətlərinin böyük tarixi olduğunu diqqətə çatdıran Əli Əhmədov deyib ki, ölkəmiz Çin ilə əlaqələrin bütün sahələrdə inkişafına əhəmiyyət verir. Möhkəm təməllər üzərində qurulan, dostluq və qarşılıqlı etimada əsaslanan Azərbaycan-Çin əlaqələrini hazırda dinamik inkişaf edən çoxtərəfli ciddi tərəfdaşlıq münasibətləri kimi səciyyələndirmək olar.

Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün əməkdaşlığımızın daha da dərinləşməsi üçün yeni imkanlar yaratdığını diqqətə çatdıran Baş nazirin müavini əlavə edib ki, Azərbaycan bu təşəbbüsü dəstəkləyən ilk ölkələrdən biri olmaqla yanaşı, onun icrasına töhfə verməyə hazırdır.

Qeyd olunub ki, tarixən müxtəlif xalqların və fərqli dinlərə inananların sülh, mehriban şəraitdə yaşadıqları Azərbaycan multikulturalizm, tolerant dəyərləri ilə seçilib. Hazırda multikulturalizm Azərbaycanda dövlət siyasəti olmaqla yanaşı, cəmiyyətin həyat tərzidir.

Dünyada bir çox ölkələrin dinlərarası qarşıdurma, separatizm, etnik təmizləmə, terrorizm kimi müxtəlif narahatlıqlarla üzləşdiyini bildirən Əli Əhmədov diqqətə çatdırıb ki, qonşu Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal olunub, bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Azərbaycan ümid edir ki, haqq-ədalət təmin olunacaq və BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qəbul etdiyi qətnamələrin tələbləri yerinə yetirilməklə, torpaqlarımız işğaldan azad olunacaq, ölkəmizin ərazi bütövlüyü təmin ediləcək. Baş nazirin müavini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Azərbaycanın haqlı mövqeyini dəstəklədiyinə görə Çin tərəfinə təşəkkür edib.

Dünyanı narahat edən mövzuların müzakirəyə çıxarıldığı Tayhu Forumunun əhəmiyyətini qeyd edən Baş nazirin müavini deyib ki, birgə xoşbəxt gələcəyin qurulması hər kəsi düşündürən məsələ olmalıdır.

Ümumi, 6 tematik və yekun iclaslardan ibarət forumda beynəlxalq münasibətlər, iqtisadiyyat, mədəniyyət, ekologiya, fəlsəfə, sosiologiya və təbabət mövzularında, habelə "Bir kəmər, bir yol" təşəbbüsünə dair müzakirələr aparılır.

Forumun liderlər panelində çıxış edən Əli Əhmədov Azərbaycanın iqtisadi inkişafından, ölkəmizin mədəniyyətlərarası və dinlərarası dialoqun dərinləşməsi ilə bağlı gördüyü işlərdən danışıb, bu istiqamətdə Azərbaycanda keçirilən beynəlxalq tədbirləri qeyd edib. Bildirib ki, Azərbaycanın təşəbbüsü ilə icra olunan irimiqyaslı enerji və nəqliyyat layihələri, o cümlədən Avropa ilə Çin arasında ən qısa dəmir yolu əlaqəsini təmin edən Bakı-Tbilisi-Qars layihəsi ölkəmizin regional və beynəlxalq əməkdaşlığa və inkişafa verdiyi böyük töhfələrdəndir.

Baş nazirin müavini Çin təbabəti mədəniyyətinin inkişafı ilə bağlı bölmə iclasında çıxış edərək xalqlarımız arasında tarixən mövcud olan dostluq əlaqələrindən, müasir dövrdə iki ölkənin münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən tibb sahəsində inkişafından danışıb.

Azərbaycan nümayəndə heyətinin digər üzvləri də iclasın müxtəlif mövzularda bölmə iclaslarında məruzəçi qismində çıxış ediblər. Nümayəndə heyəti Pekində İmperator sarayı (Ququn sarayı) və Saray muzeyi ilə tanış olub. Qeyd edək ki, Çin dövlətinin dəstəyi ilə 2008-ci ildə yaradılan yüksək səviyyəli beynəlxalq mədəniyyət forumu olan Tayhunun 2011-ci ildən illik iclasları keçirilir.

İllik iclas Çinin Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Tayhu Dünya Mədəniyyəti Forumu və nüfuzlu "China Daily" qəzeti tərəfindən təşkil edilib.

# Azərbaycan-İtaliya əlaqələrinin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov oktyabrın 18-də İtaliya Respublikası Senatının sədri Maria Elisabetta Alberti Kasellatinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, İtaliya Senatının sədri qismində ölkəmizə səfərindən məmnunluğunu ifadə edən Maria Elisabetta Alberti Kasellati Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul olunduğunu və görüş zamanı çox faydalı müzakirələrin aparıldığını qeyd edib.

Münasibətlərin cari səviyyəsini yüksək qiymətləndirən tərəflər qarşılıqlı səfərlərin və görüşlərin ikitərəfli əlaqələrin genişlənməsi üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğuladılar. Bu xüsusda, tərəflər Azərbaycan və İtaliya arasında dostluq əlaqələrinin daha da inkişafında parlamentlərin fəaliyyətini yüksək qiymətləndiriblər. Həmçinin görüşdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın İtaliyaya son səfərinin nəticələrindən məmnunluq ifadə olunub.

İtaliyanın Azərbaycanın strateji tərəfdaşı olduğunu qeyd edən nazir Elmar Məmmədyarov ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi üzrə aparılan köklü islahatlar barədə məlumat verərək İtaliya şirkətlərinin daha da fəal surətdə qeyri-neft sektorunda təmsil olunması üçün cəlbedici imkanların olduğunu bildirib. Nazir "Cənub qaz dəhlizi" və onun vacib hissələri olan TANAP və TAP layihələrinin əhəmiyyətini vurğulayıb. O, bu layihələrin reallaşmasının iqtisadi əlaqələrin daha da inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.

Son illərdə İtaliyanın Azərbaycanın ən böyük ticarət tərəfdaşlarından biri olduğunu vurğulayan tərəflər Azərbaycan-İtaliya iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın növbəti iclasının keçirilməsinin əhəmiyyətini vurğulayıblar.

Söhbət zamanı Heydər Əliyev Fondunun İtaliyada həyata keçirdiyi layihələr təqdir olunub.

Görüşdə elm, təhsil, mədəniyyət sahələrində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Siyasi məsləhətləşmələr keçirilib

Oktyabrın 18-də Bakıda Azərbaycan və Türkmənistan xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətlərinə Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, Türkmənistan tərəfdən isə Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov rəhbərlik ediblər. Həmsöhbətlər iki qonşu ölkə arasında ənənəvi əməkdaşlığın əhəmiyyətini vurğulayaraq, Azərbaycan-Türkmənistan münasibətlərinin inkişafı prioritetlərinin dövlət başçıları tərəfindən müəyyən edildiyini bildiriblər. Bu xüsusda, Rəşid Meredov ölkəmizə səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul edildiyini minnətdarlıq hissi ilə söyləyib.

Elmar Məmmədyarov məsləhətləşmələrin keçirilməsini təqdirəlayiq hal kimi dəyərləndirərək, bunun ikitərəfli münasibətlərin geniş gündəliyi üzrə müxtəlif məsələlər ətrafında mövqelərin əlaqələndirilməsi üçün gözəl imkan yaratdığını qeyd edib. Məsləhətləşmələr çərçivəsində siyasi-diplomatik əlaqələrin, o cümlədən ən yüksək səviyyədə səfərlər mübadiləsinin davam etdirilməsi, beynəlxalq və regional əməkdaşlıq barədə ətraflı müzakirələr aparılıb. Aktau zirvə toplantısında imzalanmış Xəzər dənizinin hüquqi statusu üzrə Konvensiyanın tarixi əhəmiyyəti bir daha vurğulanıb. İki ölkə arasında ticari-iqtisadi əməkdaşlıqda müşahidə olunan müsbət dinamika qeyd edilərək, onun keyfiyyət baxımından yeni, daha yüksək səviyyəyə qaldırılması məqsədilə ayrı-ayrı dövlət qurumları və işgüzar dairələr tərəfindən yerinə yetirilməli işlərin əlaqələndirilməsi perspektivləri barədə müzakirə aparılıb. Mədəni-humanitar, logistika və sənaye sahələrində münasibətlərin daha da inkişaf etdirilməsi üçün əlverişli əməkdaşlıq fürsətlərinin olduğu vurğulanıb.

Görüş əsnasında Rəşid Meredov beynəlxalq təşkilatlarda, ilk növbədə, BMT sisteminə daxil olan qurumlarda Türkmənistanın təşəbbüslərinin nəinki sadəcə, dəstəklənməsi, bir çox hallarda onlara həmmüəllif olaraq qoşulmasına görə Azərbaycan tərəfinə dərin təşəkkürünü bildirib.

Elmar Məmmədyarov beynəlxalq təşkilatlarda müxtəlif məsələlər üzrə, ən başlıcası isə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kontekstində ölkəmizin ərazi bütövlüyü və suverenliyinə göstərdiyi dəstəyə görə Türkmənistan tərəfinə minnətdarlığını ifadə edib.

Məsləhətləşmələrin yekunlarına dair nazirlər səviyyəsində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Türkmənistanın Xarici İşlər Nazirliyi arasında 2019-2020-ci illər üçün əməkdaşlıq proqramı imzalanıb.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində mükafatların təqdimatı olub

**Oktyabrın 18-də - Dövlət Müstəqilliyi Günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün, Azərbaycan Respublikasının orden və medallarının, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarının və vəsiqələrinin təqdimat mərasimi keçirilib.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Dövlət Aktının qəbul olunması Günü münasibətilə təbrik edərək deyib: “1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Müstəqilliyi haqqında dövlət aktı qəbul olunmuşdur. Lakin o dövrün Azərbaycanında ictimai-siyasi və iqtisadi tənəzzül, vətəndaş müharibəsi, qarşıdurma, hakimiyyət uğrunda mübarizələr və bütün bunlardan istifadə edən işğalçı ölkənin torpaqlarımıza təcavüzü hökm sürürdü. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin itirilmə təhlükəsi yaranmışdı. Belə bir dövrdə Azərbaycanın milli liderə böyük ehtiyacı var idi. O zaman xalqın və ziyalıların təkidli tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən ümummilli liderimiz Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qaydışı dövlət müstəqilliyimizi qorudu. Ölkəmizdə sabitlik və vətəndaş həmrəyliyi bərpa olundu, müstəqil Azərbaycan sürətli inkişaf mərhələsinə qədəm qoydu”.

Ali Məclisin Sədri deyib: “Bu gün ümummilli liderimizin yolu ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə bütün sahələrin inkişafı diqqətdə saxlanılır, dövlət proqramları qəbul olunur. Dövlət proqramlarının icrasında, xidmətlərində və fəaliyyətlərində fərqlənənlərin əməyi isə qiymətləndirilir, onlar dövlətimizin ali mükafatlarına layiq görülürlər. Bu gün təltif olunanlar da çalışdıqları sahələrdə öz əməkləri ilə fərqlənən insanlardır”.

Ali Məclisin Sədri təltif olunanları ölkəmizin ali mükafatlarına layiq görülmələri münasibətilə təbrik edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra Ali Məclisin Sədri Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünü, orden və medalların, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarını və vəsiqələrini təqdim edib.

Prezident təqaüdçüsü Arif Əzizov çıxış edərək deyib ki, muxtar respublikada tarixi-mədəni irsimizə qayğı göstərilir. Bu sahədə görülən işlər sırasında tarixi abidələrin bərpası xüsusi yer tutur. Vaxtilə dağılmaq təhlükəsində olan abidələrimizə bu gün ikinci həyat verilir. Bərpaçıların əməyinin yüksək qiymətləndirilməsi isə bizi daha da ruhlandırır. Arif Əzizov əməyinə verilən yüksək qiymətə görə ölkə Prezidentinə minnətdarlıq edib.

Təltif olunanlardan Ruhiyyə Rəsulova minnətdarlıq edərək deyib: “”Tərəqqi” medalı ilə təltif olunmağım çalışdığım Naxçıvan Dövlət Televiziyasının kollektivinin əməyinə verilən yüksək qiymətdir. Səmərəli fəaliyyət göstərmək üçün, ilk növbədə, yaxşı iş şəraiti olmalıdır. Naxçıvan Dövlət Teleradiosunda ən müasir avadanlıqlar qurulub, hərtərəfli iş şəraiti yaradılıb. Müstəqilliyimizin ilk illərində ölkəmizdəki çətinlikləri yaxşı xatırlayırıq. Lakin ötən dövrdə Ulu Öndərimizin siyasi xəttinin uğurla davam etdirilməsi xalqımızı əsl müstəqilliyə, ölkəmizi isə davamlı inkişafa və tərəqqiyə qovuşdurub. Söz veririk ki, bundan sonra da ölkəmizin, eləcə də muxtar respublikamızın müasir inkişafını, zəngin tarixi-mədəni irsini və turizm potensialını layiqincə təbliğ edəcəyik”.

Dövlət qulluqçusu Sahib Məmmədov deyib: “Ölkə Prezidentinin sərəncamı ilə təltif olunmağım və bugünkü təqdimat mərasimində iştirakım həyatımda əlamətdar hadisədir. Ulu öndərimiz Heydər Əliyev deyirdi ki: *“Mən həyatda yalnız üç şeyə arxalanmışam: Yaradanıma, zəhmətimə və bir də xalqıma”.* Bu gün ulu öndərimizin ideyaları müstəqil Azərbaycana xidmətin əsas istiqamətləridir. Biz də həyat və fəaliyyətimizdə ulu öndərimizin ideyalarına arxalanır, onun müəyyənləşdirdiyi yolun uğurlu davamına dəstək veririk”.

Təltif olunanlardan Səbuhi Şahverdiyev, Yaşar Həsənov, Şərafət Babayeva, Samirə Əliyeva, Hicran Hacıyeva və Xanım İsgəndərova da əməklərinə verilən yüksək qiymətə görə çalışdıqları kollektivlər adından minnətdarlıq edib, bundan sonra da qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirəcəklərinə söz veriblər.

# Professor Fəridə Səfiyevanın “Bir ömrün iziylə” kitabının təqdimatı





**Maqsud İbrahimbəyovun Yaradıcılıq Mərkəzində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru Fəridə Səfiyevanın “Bir ömrün iziylə” kitabının təqdimatı olub.**



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.

Kitab Azərbaycan sovet fəlsəfə tarixinin banisi, Azərbaycan SSR Elmlər Akademiyasının ilk vitse-prezidentlərindən biri akademik Heydər Hüseynovun həyat və yaradıcılığından bəhs edir.

Bakı Dövlət Universitetinin “Sosiologiya” kafedrasının müdiri, professor, fəlsəfə elmləri doktoru, kitabın elmi redaktoru İzzət Rüstəmov, filologiya üzrə fəlsəfə doktoru, “Kaspi” Mətbuat və Təhsil Mərkəzinin rəhbəri Sona Vəliyeva və digər çıxışçılar nadir arxiv sənədləri, akademikin həmkarlarının, tələbələrinin, ailə üzvlərinin xatirələri əsasında yazılan kitabda bu günə qədər ictimaiyyətə məlum olmayan bir çox məqamlara aydınlıq gətirildiyini qeyd ediblər.

Bildirilib ki, 1935-1950-ci illərdə Azərbaycan elminin inkişafında mühüm xidmətləri olan alimin həyatını faciəli sonluğa gətirib çıxaran hadisələr və səbəblər nəşrdə ilk dəfə açıqlanır.

Kitabda həmçinin Heydər Hüseynovun biblioqrafiyası, şəxsi arxivində olan sənədlərin siyahısı, onların fotoşəkli, ailə fotoalbomu yer alıb.

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Moskvada “Azərbaycanın payız sovqatları” adlı şəhərcik açılıb

**Heydər Əliyev Fondu, Azərbaycanın Rusiyadakı səfirliyi və Moskva hökumətinin təşkilatçılığı, Azərbaycanın İqtisadiyyat Nazirliyinin dəstəyi ilə oktyabrın 17-dən 21-dək Moskvanın Tver meydanında “Azərbaycanın payız sovqatları” adlı şəhərcik fəaliyyət göstərəcək.**



AZƏRTAC xəbər verir ki, oktyabrın 18-də şəhərciyin təntənəli açılış mərasimində Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Moskva hökumətinin naziri, ticarət və xidmətlər departamentinin rəhbəri Aleksey Nemeryuk, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu və digər rəsmi şəxslər iştirak ediblər.

Moskva hökumətinin naziri, ticarət və xidmətlər departamentinin rəhbəri Aleksey Nemeryuk açılış mərasimində çıxış edərək bildirib ki, burada Azərbaycanda istehsal olunan ən yaxşı məhsullar təqdim edilir. O deyib: “Bu gün ilk dəfə Moskvada bu formatda Azərbaycan günləri keçirilir. Azərbaycanın ən yaxşı istehsalçıları Moskvada öz məhsullarını nümayiş etdirirlər. Biz bu gün Tver meydanına gələn hər kəsi görməkdən məmnunluq duyuruq. Burada hər şey gözəl təşkil olunub. Şəhərcikdə Azərbaycan məhsulları nümayiş etdirilir, ziyarətçilər ustad dərslərində iştirak edə biləcəklər. Bir neçə gün ərzində burada maraqlı tədbirlər keçiriləcək. Ümid edirik ki, belə tədbirlər mütəmadi təşkil olunacaq. Moskvaya xoş gəlmisiniz!”

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Azərbaycan məhsullarının nümayişi üçün şərait yaradıldığına görə Moskva hökumətinə, Rusiya paytaxtının meri Sergey Sobyaninə təşəkkürünü bildirib. O deyib: “Azərbaycan ilə Rusiya arasında mehriban qonşuluq, strateji tərəfdaşlıq münasibətləri mövcuddur. Biz şadıq ki, bu münasibətlərdə Rusiya paytaxtının xüsusi yeri var. Moskva meri Sergey Sobyaninin Bakıya səfəri zamanı olduqca məhsuldar danışıqlar aparılıb”.



Səfir sərginin təşkilinə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təşəkkürünü bildirib. “Bu gün təşkil olunan sərgi Moskva hökuməti ilə Azərbaycan hökuməti arasında əməkdaşlığın təzahürüdür. Mən şəhərciyin gözəl təşkilinə görə Heydər Əliyev Fonduna, fondun prezidenti Mehriban Əliyevaya təşəkkürümü bildirmək istəyirəm. Heydər Əliyev Fondu bütün dünyada Azərbaycanın tanıdılması istiqamətində böyük işlər görür. Mən Azərbaycanın Rusiyadakı səfiri kimi çox şadam ki, Azərbaycan mədəniyyətini təbliğ edən Heydər Əliyev Fondunun xətti ilə Moskvada da çoxsaylı tədbirlər keçirilir” - deyə diplomat bildirib.

Polad Bülbüloğlu sərgidə Azərbaycanın turizm potensialını əks etdirən materialların olduğunu da qeyd edib, moskvalıları Azərbaycana dəvət edib. O, həmçinin belə sərgilərin ənənəvi keçiriləcəyinə ümidvar olduğunu bildirib.

Şəhərcikdə Azərbaycan mədəniyyəti və tarixi, milli mətbəx nümunələri təqdim edilir, misgərlik, xalçaçılıq, müxtəlif sənətkarlıq növləri üzrə məhsullar nümayiş etdirilir. Beş gün ərzində Azərbaycan mədəniyyətinin təbliği çərçivəsində konsert və sərgilər təşkil olunacaq, şəhərciyə gələnlərə Azərbaycanın müxtəlif milli sənətkarlıq nümunələrinin hazırlanması və milli rəqslər, musiqi alətlərində ifa üzrə ustad dərsləri də keçiriləcək.

Tədbir çərçivəsində Azərbaycan mətbəxini təqdim edən restoranlar, çay evi, Azərbaycanda istehsal olunan müxtəlif məhsulların satışı təşkil edilib. Həmçinin “I Love Baku” milli suvenir brendinin məhsulları təqdim edilir. Heydər Əliyev Fondunun müxtəlif nəşrləri Moskva sakinlərinə və Rusiya paytaxtının qonaqlarına ölkəmizin mədəniyyəti, tarixi, insanları, incəsənəti və milli mətbəximiz barədə ətraflı məlumat əldə etməkdə yardımçı olacaq.

Şəhərciyin fəaliyyət göstərdiyi günlərdə Dövlət Rəqs Ansamblı və Dövlət İnstrumental Ansamblının, Xalq artisti Ənvər Sadıqovun rəhbərliyi ilə “Qaytağı” ansamblının çıxışları olacaq, Şəhriyar İmanovun müşayiəti ilə musiqi proqramı təqdim ediləcək.

Şəhərciyə gələnlər rəngarəng ərzaq çeşidləri və suvenirlər almaq, müxtəlif ustad dərslərində iştirak etmək, fotosərgi ilə tanış olmaq, yaradıcı kollektivlərin çıxışlarına baxmaq və peşəkar aşpazlardan milli xörəklərin hazırlanması sənətini öyrənmək imkanı əldə edəcəklər. Tədbirin qonaqları Azərbaycan mətbəxinin nümunələrinin dadına da baxa biləcəklər.

# Heydər Əliyev Mərkəzində “Heydər Əliyev və Azərbaycan tarixi” V Ümumrespublika bilik yarışı keçirilib



**Oktyabrın 18-də Heydər Əliyev Mərkəzində “Heydər Əliyev və Azərbaycan tarixi” V Ümumrespublika bilik yarışı keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə dövlət himni səsləndirilib, ümummilli lider Heydər Əliyevin gənclərlə bağlı çıxışını əks etdirən videoçarx nümayiş olunub.**

Heydər Əliyev Mərkəzinin təşkilatçılığı və Təhsil Nazirliyinin dəstəyi ilə reallaşdırılan layihə Azərbaycan xalqının ümummilli liderinin həyat və fəaliyyətinin öyrənilməsi, onun irsinin yaşadılması və gənclər arasında təbliği, eyni zamanda, gənc nəslin elmə, maarifləndirici yarışlara marağının artırılması məqsədini daşıyır.

Tədbirdə məlumat verilib ki, “Heydər Əliyev və Azərbaycan tarixi” Ümumrespublika bilik yarışı 2014-cü ildən etibarən hər il təşkil olunur. Budəfəki yarışın oktyabrın 18-də - Dövlət Müstəqilliyi Günündə keçirilməsi təsadüfi deyil. Bu gün Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olaraq öz dövlət müstəqilliyini bərpa etməsindən 27 il keçir. Azərbaycan müstəqilliyini 1991-ci ildə bərpa etsə də, 1993-cü il iyunun ortalarınadək ölkədəki mövcud vəziyyət bu müstəqilliyin kövrək olduğunu göstərdi. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanda sabitliyin və inkişafın başlanğıcı oldu. Müasir Azərbaycan ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hər sahədə inkişaf etdi.

Qeyd edilib ki, “Heydər Əliyev və Azərbaycan tarixi” V Ümumrespublika bilik yarışında 47 ali təhsil müəssisəsinin komandaları iştirak edib. Azərbaycan İlahiyyat İnstitutu, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının komandaları bu il ilk dəfə olaraq müsabiqəyə qoşulublar.

Ali təhsil müəssisələrində əyani əsaslarla bakalavr və magistr səviyyələri üzrə təhsil alan tələbələr bu il də müsabiqəyə hazırlıq məqsədilə Heydər Əliyev Mərkəzini ziyarət ediblər. Onlar mərkəzdəki Heydər Əliyev Muzeyində Azərbaycan tarixinə, ümummilli liderin həyat və fəaliyyətinə dair məlumatlar əldə edib, burada toplanmış arxiv materialları əsasında araşdırma aparıblar.

Sonra tələbələrin yarışa hazırlığını əks etdirən videoçarx nümayiş olunub.

Müsabiqə 3 turda keçirilib və hər turda Azərbaycanın tarixi, mədəniyyəti, ümummilli lider Heydər Əliyevin irsini əhatə edən 12 sual səsləndirilib. Qalib komandalar turlar üzrə qazanılmış xalların cəminə görə müəyyən edilib və mükafatlandırılıb.

Münsiflər heyətində Heydər Əliyev Mərkəzi, Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun nümayəndələri təmsil olunublar.

İlk dəfə yarışmada iştirak edən M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının II kurs tələbəsi Polad Həbibov təəssüratlarını bölüşərək deyib: “Artıq bir neçə dəfədir intellektual oyunlarda iştirak edirəm, lakin belə miqyasda bir yarışda olmamışdım. Bundan böyük qürur hissi duyuram. Bu yarışma bizə Heydər Əliyev şəxsiyyəti, ulu öndərin həyatı və irsi ilə daha yaxından tanış olmağa imkan verdi. Ümidvaram ki, maraqlı oyun keçəcək, bütün komandalara uğurlar arzulayıram”.

Azərbaycan İlahiyyat İnstitutunun tələbəsi Firudin Həmidli yarışın yüksək səviyyədə təşkil olunduğunu vurğulayaraq deyib: “Bu ilin fevralında Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamla yaradılmış İlahiyyat İnstitutu bu yarışmada ilk dəfə iştirak edir. Yarışın ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olması bizə xüsusi stimul verir. Bu yarışda daha həvəslə iştirak edirik. Komandamız bilik yarışmasına ciddi hazırlaşıb, özümüzə güvənirik və uğur əldə edəcəyimizə inanırıq”.

Bilik yarışında Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Akademiyasının komandası birinci, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası ikinci, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası üçüncü yerlərə layiq görülüblər.

Qalib komandalar mükafatlandırılıb.

Yarışın qalibi olan Dövlət Sərhəd Xidməti Akademiyasının IV kurs tələbəsi, kiçik çavuş Seyidəli Abbasov yarışa çox ciddi hazırlaşdıqlarını bildirib: “Ötən il olduğu kimi, bu il də yarışın qalibi olduğumuz üçün çox sevinirik. Bu qələbənin Sərhəd Qoşunlarının yaranmasının 100 illiyi ərəfəsinə təsadüf etməsi bizi daha çox sevindirir. Ümummilli lider Heydər Əliyevin adını daşıyan bu yarışın təşkilində və keçirilməsində əməyi olan hər kəsə təşəkkürümüzü bildiririk. Yarışma ildən-ilə daha da təkmilləşir. Bu il əvvəlki illərlə müqayisədə suallar daha çətin idi. Buna baxmayaraq, gücümüzü göstərdik və qələbə qazandıq. Buna görə çox sevinirik”.

Ümummilli lider Heydər Əliyevə həsr olunan bilik yarışında iştirak etməyin hər bir azərbaycanlı gənc üçün böyük fəxr olduğunu söyləyən Daxili İşlər Nazirliyinin Polis Akademiyasının komandasının kapitanı Bəxtiyar Əlizadə yarışmada uğur əldə etdiklərinə görə çox sevindiyini bildirib. O, ulu öndərin irsinin tələbələr və gənclər arasında təbliğ olunmasında və bu cür bilik yarışlarının təşkil edilməsində böyük rolu olan Heydər Əliyev Mərkəzinə minnətdarlığını bildirib.

## 20 oktyabr Energetiklər Günüdür

# Milli energetika sistemimiz yeni inkişaf mərhələsindədir

Tarix boyu bəşəriyyətin inkişafında mühüm rol oynamış enerji amilinin müasir dünyamızda getdikcə artan əhəmiyyəti ölkələrin enerji təhlükəsizliyinin təminatı problemini XXI əsrin əsas qlobal çağırışlarından birinə çevirib. Bu məsələ enerji istehlakçısı olan ölkələrlə bərabər, istehsalçı ölkələrin də real müstəqilliyinin, dayanıqlı inkişafının başlıca şərtidir. Ona görə enerji təhlükəsizliyi probleminin məzmunu bu gün təkcə enerji resurslarına çıxışla məhdudlaşmır, eyni zamanda siyasi, iqtisadi, ekoloji və s. amillər də daxil olmaqla enerji təminatına çoxşaxəli yanaşmanı, bu sektorda səmərəli istifadə və idarəçiliyin təmin olunmasını əhatə edir. Hər bir ölkənin milli təhlükəsizliyinin mühüm tərkib hissəsi kimi enerji təhlükəsizliyinin yeni trendlər nəzərə alınmaqla təminatı bu sektorda davamlı islahatların aparılması və sektorun qlobal çağırışlara uyğunlaşdırılması zərurətini aktuallaşdırır. Bu, enerjiyə tələbatını daxili resurslar hesabına təmin etmiş və təşəbbüskarı olduğu qlobal enerji layihələri ilə beynəlxalq aləmdə yüksək nüfuz qazanmış Azərbaycanın energetika sektoru üçün olduqca aktual strateji məsələlərdir.

Energetiklərimiz qarşıda duran vəzifələrin icrasına xidmət göstərməklə öz missiyalarını layiqincə yerinə yetirməyə çalışır, enerji ölkəsi kimi tanınmış Azərbaycanın tarixi ənənələri ilə müasir inkişafı arasında vəhdəti təmin edirlər.

Oktyabrın 20-sinin Energetiklər Günü kimi qeyd olunması ölkə həyatında xüsusi əhəmiyyət kəsb edən əlamətdar bir hadisəyə əsaslanır. 37 il əvvəl, 20 oktyabr 1981-ci ildə "Azərbaycan" İES-in birinci enerji bloku ulu öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə istifadəyə verilmiş, bununla da Azərbaycan energetikasının inkişafında yeni səhifə açılmışdır. Prezident İlham Əliyevin 13 oktyabr 2004-cü il tarixli sərəncamı ilə həmin tarixin ölkəmizdə Energetiklər Günü kimi təsis edilməsi isə milli energetika salnaməmizin daha bir şanlı səhifəsi, ölkə rəhbərliyinin bu sahədə çalışan insanların fədakar əməyinə verdiyi böyük dəyərin ifadəsidir.

Ölkəmizin bir əsrdən də çox tarixi olan elektroenergetika sisteminin sürətli inkişaf dövrü məhz ümummilli lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik illərinə təsadüf edir. Həmin illərdə Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında Qafqazda ən iri istilik elektrik stansiyası olan "Azərbaycan" İES, 1971-ci ildə Araz SES inşa olunmuş, 1972-ci ildə "2 saylı Sumqayıt İstilik Enerji Mərkəzi"nin gücü 220 MVt-a çatdırılmış, 1976-1977-ci illərdə Sərsəng su anbarı və eyniadlı su elektrik stansiyası, 1982-ci ildə Şəmkir SES istifadəyə verilmişdir.

Həmin dövrdə elektrik stansiyalarının inşası ilə yanaşı, elektrik şəbəkələri də sistemli şəkildə inkişaf etdirilərək, respublikanın dayanıqlı enerji sistemi yaradılmış, Əli Bayramlı İES - Ağdam-Gəncə-Ağstafa, Əli Bayramlı İES - Yaşma-Dərbənd, 5-ci Mingəçevir, 1-ci və 2-ci Abşeron, Muxranis-Vəli və s. kimi elektrik verilişi xətləri, "Yaşma", "Gəncə", "Ağstafa", "İmişli", "Abşeron", "Hövsan", "Nizami", "Müşfiq", "Səngəçal", "Masallı", "Ağsu", "Babək" qovşaq yarımstansiyaları istismara buraxılmışdır.

Milli elektrik enerjisi sisteminin yenidən və müasir texniki tələblərə uyğun qurularaq Avropa standartları səviyyəsinə çatdırılması, daxili enerji tələbatının tam ödənilməsi və qonşu ölkələrə elektrik enerjisi satışı ulu öndərin müstəqil Azərbaycana rəhbərliyinə qayıdışından sonra da daim gündəmdə olmuşdur. Bu dövrdə "Naxçıvan" İES, "Yenikənd" SES, qaz-turbin tipli "Şimal" İES və "Bakı" İstilik Elektrik Mərkəzi" istismara verilmiş, "Mingəçevir" SES yenidən qurulmuş, Ağcabədi, Bərdə yarımstansiyalarının və Azərbaycan İES-Ağcabədi-İmişli EVX-nin inşası həyata keçirilmişdir.

Ümummilli lider Heydər Əliyevin milli-strateji inkişaf kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin yürütdüyü qətiyyətli və ardıcıl siyasət sayəsində 2003-cü ildən başlayaraq ölkə iqtisadiyyatının bütün sahələrində olduğu kimi, energetika sahəsində də yeni nailiyyətlər əldə edilmişdir. Azərbaycanın elektrik enerjisi sistemi, enerji istehsalı infrastrukturu yenidən qurulmuş, ölkədaxili və respublikamızı xarici ölkələrlə əlaqələndirən magistral elektrik xətləri yenilənmiş, şəhər və rayonlarda onlarca böyük və kiçik elektrik stansiyaları tikilmişdir.

Onu da qeyd edək ki, 2005-ci ilə qədər əsas elektrik stansiyaları köhnə olduğuna görə onların faktiki istehsal gücü aşağı idi. Kifayət qədər elektrik enerjisi, qaz və istiliyin olmaması ölkədə regional tarazlığın pozulmasına, nəticədə bəzi ərazilərin gün ərzində yalnız bir neçə saat elektrik enerjisi alması, elektrik təchizatında tez-tez fasilələrin və sistemdə vaxtaşırı nasazlığın yaranması kimi problemlərə yol açırdı. Aşağı keyfiyyət və qeyri-müntəzəm elektrik enerjisi təchizatı isə sənaye, kənd təsərrüfatı və kommersiya fəaliyyətinə mane olur, iqtisadi artımı, məşğulluq imkanlarını əngəlləyirdi.

Belə bir vəziyyətdə Prezidentin imzaladığı "Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı" və "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər" haqqında sərəncamı ölkənin hər bir yaşayış məntəqəsinin və istehsal obyektlərinin fasiləsiz və etibarlı enerjiyə çıxışı, enerji təhlükəsizliyinin təmin edilməsi, yeni enerji mənbələrinin yaradılması istiqamətində dönüş yaratdı.

Dövlət proqramı ölkənin yanacaq enerji resurslarına olan tələbatını tam ödəməklə bərabər, bu sahənin yenidən qurulmasını, müasir avadanlıqlarla təchizatını, habelə bazar iqtisadiyyatı şəraitinə uyğunlaşmış idarəetmə sisteminin tətbiqini özündə əks etdirən strateji sənəd, energetika sektorunda aydın inkişaf bələdçisi oldu. Dövlət proqramının icrası ilə yanaşı, Asiya İnkişaf Bankının dəstəyi ilə 2006-cı ildə hazırlanmış "Enerji ötürülməsinin yaxşılaşdırılması" layihəsi çərçivəsində elektrik enerjisi təchizatının keyfiyyətini yüksəltmək və itkiləri azaltmaq üçün elektrik şəbəkələrinin bərpası, alternativ və bərpa olunan enerjinin inkişafı, enerji səmərəliliyi və enerjiyə qənaətin artırılması ilə bağlı görülən tədbirlər, eləcə də ölkənin sosial-iqtisadi inkişafı ötən dövr ərzində elektroenergetika sisteminin keyfiyyətcə yeni mərhələyə daxil olmasını təmin etdi.

Belə ki, son 15 il ərzində ümumi gücü 856,8 MVt olan 7 modul tipli ES, 525 MVt gücündə qaz-turbin tipli "Sumqayıt" İES, 780 MVt-lıq qaz-turbin tipli "Cənub" ES və ümumi gücü 151,4 MVt olan 13 SES istismara verilib. 2015-ci ildə 20 MVt-lıq Naxçıvan Günəş Elektrik Stansiyası istifdəyə verilib. 2017-ci ildə onun gücü 22 MVt-a qədər artırılıb. Bundan başqa, yenidənqurma işləri nəticəsində Mingəçevir SES-in gücü 424,6 MVt-a, Varvara SES-in gücü 17 MVt-a çatdırılıb. Respublikada generasiya gücünün artırılması ilə yanaşı, energetika sisteminin infrastrukturunda da ciddi dəyişikliklər edilib. Belə ki, hazırda ümumi gücü 23 436 MVA olan 110-500 kV-luq 212 yarımstansiya fəaliyyət göstərir.

Hazırda energetika sektorunda həyata keçirilən kompleks tədbirlər sayəsində müstəqillik dövründə 3068,3 MVt gücündə 28 yeni elektrik stansiyasının istismara verilməsi ilə hazırda ölkədə fəaliyyət göstərən elektrik stansiyalarının sayı 32-yə çatdırılıb. Bu stansiyaların energetika sistemində ümumi gücü 6294,7 MVt-dır. Ölkədə müstəqil elektrik stansiyaları da fəaliyyət göstərir. Onların ümumi qoyuluş gücü 844,4 MVt-dır. Beləliklə, ölkədə fəaliyyətdə olan elektrik stansiyalarının ümumi qoyuluş gücü hazırda 7139,1 MVt təşkil edir.

Generasiya gücünün artımı hesabına 2006-cı ildə enerji istehsalı ən yüksək həddə (24,54 mlrd. kVt-s) çatdırılıb, qənaətcil texnologiyanın tətbiqi və enerji qənaəti 2010-cu ildə istehlakın azalmasına, bu da öz növbəsində istehsalın 18,71 mlrd. kVt-s-a qədər məhdudlaşdırılmasına şərait yaradıb. Hazırkı istehlak artımı isə iri sənaye müəssisələrinin istismara buraxılması ilə bağlıdır. Belə ki, 2017-ci ildə respublika üzrə elektrik enerjisinin ümumi istehsalı 24,337 mlrd. kVt-s təşkil edib.

Cari ilin 9 ayı ərzində Azərbaycanda elektrik enerjisinin istehsalı 17 mlrd. kVt-s olub. İstilik elektrik stansiyalarında 15,5 mlrd. kVt-s, su elektrik stansiyalarında 1,4 mlrd. kVt-s, Naxçıvan Günəş Elektrik Stansiyasında 28,4 mln. kVt-s elektrik enerjisi istehsal edilib. Bu müddətdə alternativ və bərpa olunan enerji mənbələri hesabına Dövlət Agentliyinin tabeliyindəki "Azalternativenerji" MMC tərəfindən 6,7 mln. kVt-s elektrik enerjisi istehsal olunub. Ümumilikdə cari ilin 9 ayında elektrik enerjisinin istehsalına 3 milyard 701,5 milyon kubmetr təbii qaz sərf edilib. Mütərəqqi hal ondan ibarətdir ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 kilovat-saat elektrik enerjisinin istehsalına yanacağın xüsusi sərfi 18,6 qram azalıb, yəni 279,5 min ton şərti yanacağa qənaət edilib.

Ölkənin iqtisadi təhlükəsizliyinin ən vacib elementlərindən olan enerji təhlükəsizliyinin təmin edilməsi çərçivəsində görülən işlər Azərbaycanın elektrik enerjisi ixracatçısı kimi də potensialını gücləndirib. Rusiya, Gürcüstan, Türkiyə və İranla elektrik enerjisi üzrə əməkdaşlıq formatında ixracatçı və tranzit ölkə kimi Azərbaycanın rolu artıb. Əgər 2006-cı ildə respublikanın daxili ehtiyaclarını tam ödəmək üçün 2,4 mlrd. kVt-s elektrik enerjisi idxal edilirdisə, 2017-ci ildə bu göstərici 107,8 mln. kVt-s-a qədər azalıb. İxrac isə əksinə, 1,282 mlrd. kVt-s-a qədər yüksəlib. Cari ilin 9 ayı ərzində 107,4 mln. kVt-s idxala qarşı 750,6 mln. kVt-s elektrik enerjisi ixrac edilib. Gürcüstana 587,9 mln. kVt-s, İrana 72,6 mln. kVt-s, Rusiyaya 76,6 mln. kVt-s, Türkiyəyə 13,45 mln. kVt-s elektrik enerjisi ixrac edilib. İdxalın həcmi Rusiyadan 59,9 mln. kVt-s, İrandan 24,4 mln. kVt-s, Gürcüstandan 23,1 mln. kVt-s olub.

Azərbaycanın enerji sistemi ilə Rusiya, Gürcüstan, İran və Türkiyənin enerji sistemləri arasında yüksək gərginlikli xətt mövcuddur. 2013-cü ildə 500 kV-luq "Samux-Qardabani" HEVX-in istismara verilməsi nəticəsində Azərbaycan-Gürcüstan-Türkiyə enerji körpüsü vasitəsilə Azərbaycandan Gürcüstana və Türkiyəyə, gələcəkdə isə Qara dəniz və Şərqi Avropa ölkələri istiqamətində elektrik enerjisinin ixracına texniki imkanlar yaranıb. Elektrik enerjisinin ixrac bazarının genişləndirilməsi tədbirlərinə uyğun olaraq cari ilin aprel ayında "Azərenerji" ASC şirkəti ilə İranın Enerjinin İstehsalı, Ötürülməsi və Paylanmasını İdarəetmə Şirkəti TAVANİR arasında elektrik enerjisinin alqı-satqısı üzrə müqavilə imzalanıb və təcrid olunmuş (ada rejimində) İranın Muğan və Astara bölgələri üçün indiyə kimi 48,3 mln. kVt-s elektrik enerjisinin ixracı həyata keçirilib. Hazırda Azərbaycan və İran energetika sistemləri arasında "Masallı" 230 kV-luq ikinci elektrik verilişi xətti tikilir. "Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında Araz çayı üzərində "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq haqqında Saziş"dən irəli gələn vəzifələr də yerinə yetirilir.

Bunlardan əlavə, "Xudafərin" layihəsi üzrə su elektrik stansiyasının tökmə torpaq bənd, sutullayıcı, energetik traktlar, irriqasiya suqəbuledicisi və tikinti sutullayıcısı qurğularının tikintisi üzrə işlər başa çatdırılıb. "Qız qalası" layihəsi ilə bağlı işlərə də başlanıb. Hər iki stansiyada enerji bloklarının alınması və quraşdırılması planlaşdırılır. 1,6 milyard kubmetrdən çox su tutumuna malik bu hidroqovşaqlar və ümumi qoyuluş gücü 280 MVt, orta illik enerji istehsalı 766 mln. kVt-s həcmində planlaşdırılan stansiyalar Araz çayının su və enerji ehtiyatlarından hər iki tərəfin birgə istifadəsinə imkanlar yaradacaq. Eyni zamanda Rusiya ilə "Abşeron-Dərbənd" 330-kV-luq ikinci HEVX-in çəkilməsi, eləcə də Rusiya-Azərbaycan-İran arasında elektrik enerjisi dəhlizinin yaradılması üzrə danışıqlar davam etdirilir.

Enerji təhlükəsizliyi tam təmin edilmiş, digər ölkələrdən enerji asılılığı aradan qaldırılmışdır. İndi Azərbaycan elektroenergetika sektorunda hər nə qədər böyük nailiyyətlər qazansa da, əsas hədəflər hələ qarşıdadır. Onlara çatmaq üçün ölkənin elektrik enerjisi sisteminin müasir standartlara uyğunlaşdırılmasını, elektroenergetika potensialından səmərəli istifadəni, elektrik enerjisi ilə təchizatın dayanıqlığını və ümumi sistemin fəaliyyətinə təhlükə yaradacaq risklərdən sığortalanmanı təmin edən kompleks tədbirlərin həyata keçirilməsinə ehtiyac var.

Bu məqsədlə Azərbaycan Respublikası Energetika Nazirliyi tərəfindən beynəlxalq şirkət cəlb edilməklə cari ilin aprel-iyul aylarında elektrik stansiyalarında diaqnostika aparılıb və araşdırmalar əsasında "Azərenerji" ASC-nin generasiya güclərinin optimallaşdırılması və bərpası Proqramı" hazırlanıb. Bütün modul tipli elektrik stansiyalarını, eləcə də "Cənub", "Şimal" və "Sumqayıt" istilik elektrik stansiyalarını əhatə edən proqram üç il müddətində həyata keçirilməlidir. Eyni zamanda, stansiyaların fəaliyyətində istifadə olunan avadanlıqların istehsalçıları ilə bağlanacaq servis müqavilələri hesabına elektrik enerjisinin istehsalı üzrə yanacaq sərfinin optimallaşdırılması nəzərdə tutulur.

Bundan başqa, hazırda elektroenergetika sisteminin təhlükəsiz, dayanıqlı, etibarlı və səmərəli fəaliyyətinin təmin edilməsi üçün Energetika Nazirliyi və "Azərenerji" ASC ilə Almaniyanın VPC şirkəti arasında "Azərbaycan" İES-in texniki auditi, onun reabilitasiyasına dair Baş Planın, eləcə də "Azərenerji" ASC-nin ötürmə sisteminin optimallaşdırılmasına dair proqramın hazırlanması üzrə müqavilə imzalanaraq onların icrasına başlanıb. Energetika Nazirliyi "Azərenerji" ASC ilə birlikdə xarici ekspertləri cəlb etməklə "2018-ci ildə baş vermiş qəza hallarının təhlili və Azərbaycan Respublikasının enerji sisteminin elektrik şəbəkəsinin gücləndirilməsinə dair tövsiyələrin hazırlanması" layihəsi üzrə işləri davam etdirir.

Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyevin verdiyi tapşırığa uyğun olaraq ölkənin inkişafını, əhali artımını, sənayeləşmə prosesini nəzərə almaqla Azərbaycanın 2030-cu ilədək olan müddət üzrə elektrik enerjisinə tələbatı proqnozlaşdırılıb. Ölkənin elektrik enerjisinə artacaq tələbatının proqnozlaşdırılması zamanı son illər TEPSCO, Mercados, Fichtner, digər beynəlxalq məsləhətçi şirkətlər və yerli mütəxəssislər tərəfindən aparılmış tədqiqatlar da nəzərə alınıb.

2025-ci il üçün elektrik enerjisinə tələbatın 25-28 mlrd. kVt-saata, pik gücə tələbatın isə 4500-4900 MVt-a qədər artacağı proqnozlaşdırılıb. Qoyuluş gücü 409 MVt olan "Şimal-2" stansiyası və "Wartsila" şirkətindən alınmış, ümumi qoyuluş gücü 385 MVt təşkil edən bloklar 2019-2020-ci illər ərzində quraşdırılacaq. Bununla yanaşı, mövcud elektrik stansiyalarında optimallaşdırma tədbirləri ilə imkan gücünün əlavə, təxminən 400 MVt-a qədər artırılacağı gözlənilir. Tələbatın qalan hissəsinin isə növbəti onillikdə yeni elektrik stansiyaları və bərpa olunan enerji mənbələri hesabına ödənilməsi planlaşdırılır.

Azərbaycanın enerji balansında bərpa olunan enerji mənbələrinin payının artırılması da mühüm prioritetlərdəndir. Ölkə üzrə bərpa olunan enerji mənbələrinin iqtisadi potensialı 26940 MVt müəyyənləşdirilib. Günəş enerjisi üzrə bu göstərici 23040, külək enerjisi üzrə 3000, hidroenerji üzrə 520, biokütlə üzrə 380 MVt-dır. Respublikamızın bərpa olunan enerji mənbələri potensialı nəzərə alınmaqla, 2030-cu ilə qədər elektrik enerjisi istehsalının qoyuluş gücündə su elektrik stansiyaları da daxil olmaqla, bərpa olunan enerji mənbələrinin payının əhəmiyyətli dərəcədə artırılması planlaşdırılır. Prezidentin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi"ndə 2018-2020-ci illərdə külək enerjisi üzrə 350, günəş enerjisi üzrə 50 və bioenerji üzrə 20 MVt olmaqla bərpa edilən enerji mənbələri üzrə 420 MVt yeni generasiya gücünün istifadəyə verilməsi hədəf olaraq müəyyənləşdirilib.

Bərpa olunan enerji mənbələrinin ölkənin enerji balansında payının artırılması və onlardan istifadənin genişləndirilməsi məqsədilə Energetika Nazirliyi tərəfindən "Bərpa olunan enerji mənbələri haqqında" qanun layihəsinin hazırlanması üzrə işlərə başlanıb. Məsləhətçi kimi Norveç-Alman DNV-GL şirkəti ilə müqavilə bağlanıb.

Bərpa olunan enerji mənbələri hesabına istehsal güclərinin yaradılması məqsədilə bu sahədə beynəlxalq təcrübə ətraflı təhlil edilib. Dünyanın əksər ölkələrində bu sahə dövlət tərəfindən davamlı dəstək tələb edən strateji istiqamət hesab olunur. Buna görə də bir çox hallarda bu sahəyə kifayət qədər investisiya cəlb etmək üçün müxtəlif təşviq mexanizmlərinin tətbiqi zərurəti yaranır. Zəmanətli tariflər ən çox tətbiq edilən stimullaşdırıcı tədbirlərdəndir. Azərbaycanda da bərpa olan enerji mənbələrindən istifadə sahəsinə dövlət investisiyası ilə yanaşı, özəl investisiyaların cəlbi məqsədilə "Bərpa olunan enerji mənbələrindən istehsal edilmiş elektrik enerjisinin satın alınması ilə bağlı zəmanətli tarif mexanizminin tətbiqi qaydaları"nın ilkin layihəsi hazırlanıb. Bu qaydalar bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalı üzrə investisiya layihələrinin zəmanətli tarif tətbiq edilməklə həyata keçirilməsi şərtlərini, investorlar qarşısında qoyulan tələbləri, alqı-satqı müqavilələrinin xüsusiyyətlərini və şərtlərini, investisiya qoyuluşu nəticəsində əldə olunacaq elektrik enerjisinin dəyərinin müəyyənləşdirilməsi, investisiya xərclərinin investora geri qaytarılması prosesini tənzimləyir.

Elektroenergetika sektorunun dayanıqlı fəaliyyəti üçün bərpa olunan enerji mənbələrinin, xüsusilə külək və fotovoltaik enerji qurğularının mövcud enerji sistem və şəbəkələrinə inteqrasiyası vacibdir. Ona görə də külək, günəş və digər mənbələrdən alınmış enerjinin problemsiz şəkildə şəbəkəyə ötürülməsi və qoşulmanın maneəsiz təmin edilməsi məqsədilə məsləhətçi şirkət seçilməklə bərpa olunan enerji layihələrinin dəstəklənməsi üçün şəbəkənin gücləndirilməsi üzrə fəaliyyət planının və investisiya proqramının hazırlanması istiqamətində tədbirlər görülür. "Bərpa olunan enerji mənbələrinin payının artırılması məqsədilə şəbəkənin gücləndirilməsi" layihəsi çərçivəsində ötürücü, paylayıcı, SCADA və enerji idarəetmə və ölçü sistemləri təkmilləşdiriləcəkdir.

Avropa Yenidənqurma və İnkişaf Bankının texniki dəstəyi ilə "Bərpa olunan enerji mənbələrindən istifadəyə tənzimləmə dəstəyi" layihəsinin həyata keçirilməsi istiqamətində isə hazırda danışıqlar aparılır. Ümumiyyətlə, bərpa olunan enerji mənbələrinin ölkənin ümumi enerji balansında payının artırılması istiqamətində beynəlxalq şirkətlərlə sıx əməkdaşlıq edilir. Belə ki, Türkiyənin "TEKFEN İnşaat və Təsisat A.Ş." ilə alternativ və bərpa olunan enerji sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. 198 MVt-lıq Pirallahı külək elektrik stansiyasının texniki-iqtisadi əsaslandırmasının hazırlanması və tikintisinə investisiya qoyuluşu ilə bağlı isə Çinin "China Power Engineering and Consulting Group" LTD şirkəti ilə niyyət protokolunun imzalanması planlaşdırılır. Bundan başqa, külək, eləcə də digər bərpa olunan enerji mənbələrindən istifadəni genişləndirmək məqsədilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə Fəaliyyət üçün Çərçivə sənədi imzalanıb. Almaniyanın "Siemens Gamesa", Fransanın "Total", Norveçin "Equinor", Niderlandın "Ballast Nedam" və 100 MVt-lıq günəş elektrik stansiyasının tikintisi və istismarı, həmçinin "Azgüntex" günəş panelləri zavodunda müasir texnologiyaların tətbiqi ilə bağlı Rusiya Federasiyasının "Hevel Solar" şirkəti ilə müzakirələr aparılır.

Asiya İnkişaf Bankının dəstəyi ilə "Üzən günəş panelləri sisteminin inkişafına dair biliklərin mübadiləsi və texniki yardım dəstəyi" pilot layihəsi çərçivəsində Böyükşor gölündə hər biri 100 kVt-a qədər gücə malik olacaq 3 fotovoltaik sistemin quraşdırılması məqsədilə beynəlxalq məsləhətçi şirkət kimi İspaniyanın EQO-NIXUS və S.L.U şirkətləri, yerli məsləhətçi şirkət kimi "Azerbaijan Engineering and Consulting" LLC seçilərək müqavilələr imzalanıb.

Bundan başqa, Energetika Nazirliyi tərəfindən kiçik su elektrik stansiyalarının layihələndirilməsi, tikintisi və istismarı ilə bağlı mövcud vəziyyət araşdırılıb, kiçik çayların (kanalların) hidroenerji potensialından istifadənin və kiçik su elektrik stansiyalarının fəaliyyətinin səmərəliliyinin təmin edilməsi ilə bağlı tədbirlər müəyyənləşdirilib. Hazırda ölkə ərazisində ümumi gücü 23,5 MVt olan 10 kiçik su elektrik stansiyası (KSES) fəaliyyət göstərir. Bununla yanaşı, ümumi gücü 27,41 MVt təşkil edəcək 12 KSES-in tikintisi üçün layihələndirilmə işləri həyata keçirilir.

Eyni zamanda, Böyük Britaniyanın "SNC-Lavalin's Atkins" şirkəti tərəfindən kiçik su elektrik stansiyalarının fəaliyyətinin səmərəliliyinin araşdırılması, dağ çaylarında hidroenerji potensialının qiymətləndirilməsi və yeni stansiyaların tikintisinə dəstək verilməsi üçün Energetika Nazirliyi ilə BP şirkəti arasında niyyət məktubunun imzalanması planlaşdırılır.

Energetika Nazirliyi cari ilin sentyabr ayından Avropa İttifaqının İqlim və Enerji üzrə Merlər Razılaşmasının milli əlaqələndiricisi qismində fəaliyyət göstərməyə başlayıb. Bu, yerli özünüidarəetmə orqanlarının enerji səmərəliliyi, bərpa olunan enerji mənbələrindən istifadə, istilik effekti yaradan qaz emissiyalarının azaldılması prosesində fəal iştirakını təmin edəcəkdir.

Bundan başqa, küçələrin işıqlandırılmasında bərpa olunan enerji mənbələrindən, o cümlədən biotullantılardan istifadə, ictimai və yaşayış binalarında enerji effektivliyi tədbirlərinə dəstək məqsədilə hazırda Azərbaycan ilə Enerji Səmərəliliyi və Ətraf Mühit üzrə Şərqi Avropa Tərəfdaşlığı Fondu arasında əməkdaşlığın qurulması istiqamətində danışıqlar aparılır.

Dünyanın enerji balansında ayrıca enerji növü kimi qəbul olunan enerji səmərəliliyinin ölkəmizdə də enerji artmında optimal varianta çevrilməsi, enerjinin istehsalı, ötürülməsi, paylanması və istehlakında səmərəliliyə nail olmaq bu gün əsas prioritetlərdəndir. Bu məqsədlə "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" qanun layihəsi hazırlanıb. Layihədə bina və müəssisələrin enerji auditinin aparılması, istehlak edilən enerjinin həcminin və səmərəliliyinin ölçülməsi, enerji effektivliyi xidmətlərinin həyata keçirilməsi, enerji menecmenti sisteminin tətbiqi, istilik enerjisi ilə elektrik enerjisinin birgə istehsalını nəzərdə tutan kogenerasiya qurğularının yaradılması, müəssisələrdə və binalarda enerji idarəçisinin təyin edilməsi və s. müddəalar əksini tapıb.

Qanun qəbul edildikdən sonra enerji effektivliyi üzrə milli fəaliyyət planının işlənməsi və fəaliyyət planı əsasında enerji səmərəliliyi tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur. Bundan başqa, Enerjidən Səmərəli İstifadə Fondu ilə bağlı bır sıra qanunvericilik aktlarının layihələri işlənib. Eyni zamanda, "Azərbaycan Respublikasının Enerji Strategiyasının hazırlanması metodologiyası" üzrə də müvafiq işlər görülür. Bütün bu tədbirlərdə Avropa İttifaqının "EU 4 Energy" proqramı çərçivəsində Enerji Xartiyası, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi, Asiya İnkişaf Bankı və Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlıq edilir. Bu il ölkəmiz Beynəlxalq Enerji Xartiyasının Haaqa II sənədinə qoşulub, Beynəlxalq Enerji Xartiyası Konfransı sədrliyinə layiq görülüb. Bu da beynəlxalq miqyasda enerji ölkəsi kimi Azərbaycanın mövqeyini gücləndirməklə yanaşı, əməkdaşlığın miqyasını genişləndirəcək.

Bütün bu görülən işlər "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi"nin məqsəd və hədəflərinə çatmağa kömək göstərəcək. Məlum olduğu kimi, Strateji Yol Xəritəsində energetika sektorunda bazar münasibətlərinin formalaşdırılması, iqtisadi səmərəliliyin, şəffaflığın daha da artırılması, xidmət səviyyəsinin yüksəldilməsi və idarəçiliyin təkmilləşdirilməsi kimi mühüm islahat tədbirləri müəyyən edilib. Bu çərçivədə ilkin addımlardan biri elektroenergetika sektorunda yeni münasibətlərin hüquqi tənzimlənməsi, mükəmməl qanunvericilik bazasının yaradılmasıdır. Bununla əlaqədar olaraq qısa müddətdə Avropa İttifaqının 3-cü enerji paketinə əsaslanan "Elektroenergetika haqqında" qanun layihəsi hazırlanıb. Bazar münasibətlərinin mərhələli şəkildə həyata keçirilən proses olduğunu nəzərə alaraq şəbəkə məcəllələrinin hazırlanması istiqamətində də işlər aparılır. Topdansatış, pərakəndə bazar modellərinin yaradılması və tətbiqi üzrə addımların müəyyənləşdirilməsi üçün hazırda tender prosesləri həyata keçirilir. Enerji tariflərinin metodologiyasının hazırlanması, satış, ötürmə, paylama, bazar əməliyyatları və həssas tariflər kimi yeni tarif modellərinin tətbiqi ilə bağlı beynəlxalq ekspertlərin iştirakı ilə müzakirələr davam etdirilir.

Strateji yol xəritəsi çərçivəsində həyata keçirilmiş ən mühüm tədbirlərdən biri də kommunal xidmətləri bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırmaq, nəzarət mexanizmlərini daha da təkmilləşdirməklə bu sahənin davamlı inkişafına nail olmaq, enerji təchizatında şəffaflığı və çevikliyi, habelə xidmətlərin sahibkarlar üçün əlçatanlığını təmin etmək üçün Energetika Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu Enerji Məsələlərini Tənzimləmə Agentliyinin yaradılmasıdır. Ötən müddət ərzində agentliyin fəaliyyəti təşkil olunub və qurum nizamnaməsi ilə müəyyən edilmiş funksiyaların icrasına başlayıb.

Dövlət başçısının 16 iyul 2018-ci il tarixli fərmanı ilə "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiqlənməsi agentliyin üzərinə düşən vəzifələri lazımi şəkildə yerinə yetirməsinə şərait yaradıb.

Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən 2018-ci ilin 9 ayı ərzində elektrik enerjisi ilə təchizatı sahəsində etibarlılığın, səmərəliliyin və dayanıqlığın artırılması məqsədilə istehlakçıların elektrik təsərrüfatlarında 495 texniki araşdırma aparılıb. Büdcədən maliyyələşən müəssisələrdə qazın nəqli, paylanması, istifadəsi və satışında, həmçinin sənaye və məişət qaz qurğularının, avadanlıqların, kəmərlərin və digər obyektlərin layihələndirilməsi və yenidən qurulmasında qazdan səmərəli istifadə, qaz qurğularının etibarlı istismarının təmin edilməsi, "Qazdan istifadə Qaydaları" və müvafiq sahəyə dair digər normativ hüquqi aktların tələblərinə əməl olunması vəziyyətinin araşdırılması məqsədilə 481 obyektdə yoxlama aparılıb.



Bu müddətdə Enerji Məsələlərini Tənzimləmə Agentliyi və onun regional bölmələrinə 5588 sənəd daxil olub. Bu sənədlər qaz və enerji təchizatı üzrə məsələləri, layihə razılaşdırmalarını, istismara qəbul və ya istismara buraxılma, vətəndaş müraciətləri, ərizə və şikayətləri əhatə edib. Vətəndaşların onlara məxsus olan tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulmasına görə süründürməçiliklə üzləşmələri və onlardan qanunsuz vəsait tələbinin qarşısının alınması üçün nazirliyin elektron saytında əhali və qeyri-əhali abonentlərinin enerji təchizatı şəbəkəsinə qoşulması bölmələri yaradılıb. Əvvəlki dövrlərlə müqayisədə elektrik qurğularının istismara buraxılması üçün tələb olunan sənədlərin sayı 35-dən 8-ə qədər azaldılıb, istismara buraxılma aktlarının verilmə müddəti 5 iş gününə endirilib.Tikinti obyektlərinə verilmiş texniki şərtlər əsasında hazırlanmış elektrik və qaz təchizatı layihələrinin ekspertiza və qeydiyyatı da artıq 3 iş günü müddətində həyata keçirilir. Hazırda istehlakçıların, eləcə də sahibkarların elektrik və qaz təchizatına qoşulması üçün layihələr tikinti-quraşdırma işlərinə başlamazdan əvvəl razılaşdırılır. Bu isə həmin obyektlərin istismara qəbulu prosesində yarana biləcək problemlərin vaxtında aradan qaldırılmasına, eyni zamanda ləngimə hallarının qarşısının alınmasına xidmət edir.

Agentliyin regional bölmələri tərəfindən 2018-ci ilin yanvar-sentyabr aylarında enerji təchizatı üçün elektrik qurğu və avadanlıqlarının 89 layihəsi razılaşdırılıb. 1354 idarə və müəssisənin qaz təchizatının layihə-smeta sənədləri ekspertiza olunaraq qeydiyyata alınıb. Həmçinin istehlakçıların elektrik qurğularına 166 istismara buraxılma aktı verilib. 200 sənaye qaz qurğusu istismara qəbul edilib. Enerji Məsələlərini Tənzimləmə Agentliyinin fəaliyyəti dövründə sahibkarlıq obyektlərinin elektrik şəbəkəsinə qoşulması ilə bağlı "ASAN kommunal" və "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən texniki şuralara sahibkarlar tərəfindən 724 müraciət daxil olub.

1 fevral 2018-ci il tarixindən Energetika Nazirliyi tərəfindən müvafiq icazələrin "ASAN xidmət" mərkəzləri vasitəsilə verilməsi sahibkarlıq fəaliyyətinə icazələrin verilməsində şəffaflığın artırılmasını və verilmə prosesinin asanlaşdırılmasını təmin edib. 2018-ci ilin 9 ayı ərzində Energetika Nazirliyi tərəfindən 235 hüquqi şəxsə icazə verilib. Bu icazələrin 189-u ASAN xidmət" mərkəzləri vasitəsilə həyata keçirilib.

Enerji Məsələlərini Tənzimləmə Agentliyinin effektiv fəaliyyət göstərməsi və tənzimləyici funksiyalarını yerinə yetirməsi üçün bir sıra hüquqi və institusional islahatların hazırlanması və icrası zəruridir. İstehlakçı, ötürücü və paylayıcılarla bağlı idarəetmə mexanizmlərinin optimallaşdırılmasını, stimullaşdırıcı mexanizmlərin tətbiqi ilə həm elektrik enerjisi istehsalının və xidmətin keyfiyyətinin artırılmasını, istehlakçılar üçün aşağı qiymətin təmin edilməsini, həm də elektrik enerjisi bazarında rəqabət mühitinin yaradılmasını nəzərdə tutan islahatların həyata keçirilməsi üçün Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlıq edilir. Bu əməkdaşlıq çərçivəsində "Tərəfdaşlararası Tənzimləyici Yardım" layihələri həyata keçirilir.

Enerji Məsələlərini Tənzimləmə Agentliyinin fəaliyyəti ilə bağlı "Tənzimləyici haqqında" qanun layihəsinin hazırlanması prosesinə dəstək məqsədilə məsləhətçi şirkətin seçilməsi üçün tender prosesi yekunlaşmaq üzrədir. Bu sahədə qanunun qəbulu investisiya mühitinin həqiqi tariflərin tətbiqi ilə yaxşılaşdırılmasına, maraqlı tərəflərin münasibətlərinin tənzimlənməsinə, istilik, qaz və elektrik şəbəkələrində itkilərin azalmasına, istehlakçıların hüquqlarının qorunmasına, ötürücü və paylayıcı şəbəkə istifadəçilərinin maraqlarının səmərəli müdafiəsinə, özəl investisiyalar və enerji səmərəliliyinin stimullaşdırılmasına imkan verəcəkdir.

*Bütün bunlar ölkə rəhbərliyinin həyata keçirdiyi çoxşaxəli inkişaf siyasətinin və bu siyasətdən irəli gələn vəzifələri energetika sektorunda ləyaqətlə yerinə yetirən Azərbaycan energetiklərinin çətin və şərəfli əməyinin yaratdığı uğurlu reallıqlardır. Energetiklərimizin fədakar əməyi daim öz layiqli qiymətini almış, onlar yüksək dövlət təltifləri ilə mükafatlandırılmışlar.*

*Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin icrası göstərir ki, Azərbaycan növbəti illərdə də bütün strateji hədəflərinə çatmağa müvəffəq olacaq, energetiklərimiz də bu işdə fəal iştirak edəcəklər.*

***Pərviz ŞAHBAZOV,***
***Azərbaycan Respublikasının energetika naziri***

# Azərbaycan “Beynəlxalq gələcək qüvvələr sərgisi 2018”də təmsil olunur

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Çex Respublikasına səfəri çərçivəsində bu ölkənin Müdafiə, Daxili İşlər, Xarici İşlər nazirliklərinin, Silahlı Qüvvələrin Baş Qərargahının, NATO qərargahının, Avropa Müdafiə Agentliyinin və bir sıra digər milli və beynəlxalq təşkilatların dəstəyi ilə keçirilən “Beynəlxalq gələcək qüvvələr sərgisi 2018”də iştirak edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu tədbir milli və qlobal təhlükəsizlik hədəflərinin təqdimi və təşviqi, eyni zamanda, müdafiə və təhlükəsizlik sahələri üzrə məlumat mübadiləsi məqsədilə keçirilən beynəlxalq səviyyədə tanınmış nüfuzlu bir platformadır.

Sərgidə 60-dan çox ölkənin 1200-dək şirkəti iştirak edir. Azərbaycan nümayəndə heyəti həmin sərgiyə qatılan xarici ölkələrin müdafiə şirkətlərinin istehsal etdiyi məhsullarla tanış olaraq onların təyinatları barədə ətraflı məlumat alıb.

Səfər çərçivəsində müdafiə naziri Z.Həsənov bir sıra müdafiə şirkətlərinin rəhbərliyi ilə ikitərəfli görüşlər də keçirib.

# Yaxın keçmişdə xarici sərmayədən asılı olan Azərbaycan bu gün dünyada investor ölkə kimi tanınır

Məlum olduğu kimi, hazırda dünyada siyasi gərginlikdən qaynaqlanan iqtisadi problemlər mövcuddur. Belə vəziyyət iqtisadiyyatın bir çox sahəsinə, o cümlədən kapital qoyuluşuna təsir göstərir, dünyada sərmayə yatırımında durğunluq hökm sürür. Ölkəmizdə isə fərqli vəziyyət mövcuddur. Belə ki, Azərbaycanda yaradılan münbit investisiya mühiti və investisiyaların təşviqi xarici kapitalı ölkəmizə cəlb etməkdə davam edir. Bundan əlavə, bizdə dövlət vəsaiti hesabına da əsas kapitala külli miqdarda yatırımlar edilir.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında kapital qoyuluşunun əhəmiyyətini vurğulayaraq demişdir: “Dövlətin dəstəyi ilə bu istiqamətdə bir çox layihələr icra edilib. O cümlədən dövlətin birbaşa maliyyə dəstəyi ilə böyük, nəhəng müəssisələr yaradılır. Misal üçün, bu il polipropilen zavodunun açılışı, hesab edirəm ki, çox əlamətdar hadisədir... İlin sonuna qədər “SOCAR Polymer”in ikinci layihəsi - yüksək sıxlıqlı polietilen zavodu da istifadəyə veriləcək. Bu zavodlara qoyulan sərmayələrin həcmi 800 milyon dollardan çoxdur. Əlbəttə, bizim qeyri-neft sənayemizin inkişafı üçün bu zavodların böyük əhəmiyyəti olacaq”.

Hazırda Azərbaycanda investisiya yatırımı ən çox qeyri-neft sektoruna edilir. İnvestisiya təşviqi sisteminin tətbiqindən sonra sahibkarlara 300-dən çox investisiya təşviqi sənədi verilib. Bu mexanizm hesabına icra edilən və nəzərdə tutulan layihələrin ümumi investisiya həcmi 2,7 milyard manatdır. Ümumilikdə isə həmin işlərin aparılmasına 3 milyard manat investisiya cəlb edilib ki, bunun da sayəsində 20 min yeni iş yeri açmaq mümkün olub.

Ölkəmizdə müxtəlif sahələrə yatırılan xarici investisiyaya gəldikdə, təkcə cari ilin 9 ayında bu cür sərmayələrin məbləği 3 milyard 217 milyon manat olub. Həmin investisiyanın 80,6 faizi İngiltərə, İsveçrə, Türkiyə, Malayziya, ABŞ, Yaponiya, Rusiya, İran və Çexiya sərmayədarlarına məxsusdur.

İndi ölkəmiz həm də xarici ölkələrə kapital yatırır. Belə ölkələrdən biri qardaş Türkiyədir. Təkcə bu ölkədəki “Star” Neftayırma Zavoduna Azərbaycan 6 milyard dollardan çox investisiya qoyub. Əvəzini çox gözləməyəcəyik. Ölkəmiz bu müəssisə fəaliyyətə başlayandan sonra hər il yüz milyonlarla dollar gəlir əldə edəcək.

İndi də bu barədə son statistika: Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-sentyabr aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 10 milyard 148 milyon manatdan çox sərmayə yatırılıb. Qeyri-neft sektoruna yönəldilən vəsaitin həcmi 20,2, qeyri-neft sənayesinə qoyulan sərmayənin həcmi 24,4 faiz artıb.

Hesabat dövründə qoyulan ümumi sərmayənin 51,6 faizi dövlətə məxsus olub. Özəl sektor da kapital qoyuluşunda iştirak edir. 9 ay ərzində ölkə iqtisadiyyatına qoyulan sərmayənin 48,4 faizinin qeyri-dövlət sektoruna məxsus olması sübut edir ki, iş adamları da bu sahədə fəaldırlar.

Bunu cari ilin əvvəlində ölkədə tikilib istifadəyə verilən müxtəlif obyektlərin siyahısından da görmək mümkündür. Bakı şəhərində Yüksəkgərginlikli Avadanlıqlar Zavodu, Bona Dea Beynəlxalq Hospitalı, “Dinamo” hoteli, Sumqayıt Kimya Sənaye Parkında Polipropilen Zavodu, Mingəçevir Sənaye Parkında “Mingəçevir Tekstil” MMC-nin iplik istehsalı üzrə iki müəssisəsi, Goranboyda “Region Aqropark”, İsmayıllı rayonunda Heyvandarlıq Kompleksi, Aqropark, Neftçala Sənaye Məhəlləsində “Xəzər” Avtomobil Zavodu, Şamaxı rayonunda üzümçülük və şərabçılıq kompleksi, Masallı rayonunda Sənaye Məhəlləsi, Çəltik Emal Müəssisəsi və s. obyektlər məhz qeyri-dövlət sektorunda fəaliyyət göstərən fiziki və hüquqi şəxslər tərəfindən tikilib istifadəyə verilmişdir.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# Tütün məmulatlarının təbliği qadağan edilə bilər

“1991-ci oktyabr ayının 18-də Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi. Həmin gündən bu günə qədər Azərbaycan müstəqillik, istiqlal içərisində uğurla yaşamaqda davam edir. Amma bərpa edilən bu müstəqillik 1993-cü ildə yenə 2 yaşına çatana qədər itirilə bilərdi. Bu zaman tarix səhnəsində böyük dövlət adamı Heydər Əliyev göründü. Müqtədir əlləri ilə Azərbaycanın üç rəngli bayrağından yapışdı, yaşatdı, böyütdü, möhkəmlətdi, 20-ci əsrdən 21-i əsrə keçirdi. Və onu özü qədər inandığı bir insanın etibarlı əllərinə tapşırdı. 27 illik müstəqilliyin 25 ili bu iki insanın adı ilə bağlıdır: Heydər Əliyevin və bu gün onun uğur yolunu davam etdirən Prezident İlham Əliyevin adı ilə...”

Milli Məclisin Mədəniyyət komitəsinin dünən keçirilən iclası komitənin sədri Rafael Hüseynovun 18 oktyabr Müstəqillik Günü münasibəti ilə səsləndirdiyi bu təbriklə başladı.

Gündəliyə isə 4 məsələ - “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında”, “Televiziya və radio yayımı haqqında” (üçüncü oxunuş), “İctimai televiziya və radio yayımı haqqında” və “Teatr və teatr fəaliyyəti haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihələri daxil edilmişdi.

Komitə Sədri vurğuladı ki, “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” qanunda dəyişikliklər edilməsi haqqındakı sənədə nəzərdə tutulan dəyişikliyə əsasən televiziya və videofilmlərdə, teatr tamaşalarında, radio, televiziya, video və kinoxronika proqramlarında, uşaqlar üçün nəzərdə tutulan audiovizual əsərlərdə tütün məmulatlarının və tütün istifadəsi prosesinin təbliğat məqsədilə nümayiş etdirilməsi, həmçinin tütün məmulatlarının və tütündən istifadə prosesinin təbliğat məqsədilə nümayiş etdirildiyi əsərlərin, tamaşaların, proqramların efirdə, kabel yayımı vasitəsilə açıq yayımlanmasının qadağan edilməsi təklif olunur.

“Televiziya və radio yayımı haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə əsasən, sənədə “Tütün məmulatlarını və tütün istifadəsi prosesini təbliğat məqsədilə nümayiş etdirməmək, həmçinin tütün məmulatlarının və tütün istifadəsi prosesinin təbliğat məqsədilə nümayiş etdirildiyi əsərləri, tamaşaları, proqramları efirdə, kabel yayımı vasitəsilə açıq yayımlamamaq” məzmunlu maddə əlavə edilir.

“İctimai televiziya və radio yayımı haqqında” qanuna dəyişiklik edilməsi barədə qanun layihəsinə də eyni məqsədli yeni maddə əlavə olunur.

“Teatr və teatr fəaliyyəti haqqında” qanunda dəyişiklik edilməsi barədə layihəyə görə “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” qanunun 14.1.4-cü maddəsinə uyğun olaraq, teatr tamaşalarında tütün məmulatlarının və tütün istifadəsi prosesinin təbliğat məqsədilə nümayiş etdirilməsi qadağandır” məzmunlu 11.4-cü maddə əlavə edilir.

İclasda qeyd olundu ki, hər üç sənəddə nəzərdə tutulan dəyişikliklər “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” qanuna uyğunlaşdırılma məqsədi daşıyır. Daha sonra komitə üzvləri təqdim olunan düzəlişlərə müsbət rəy bildirərək qanun layihələrini Milli Məclisin plenar iclasına tövsiyə etdilər.

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***


Təkrar

## Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi Azərbaycan Turizm və Menecment Universiteti tədbir və konfransların keçirilməsinin satın alınması üçün

## *açıq tender elan edir*

Tender 3 LOT üzrə keçirilir:

**LOT-1.** “Müasir dövrdə effektiv idarəetmənin problemləri” mövzusunda Respublika elmi-praktiki konfransının keçirilməsi

**LOT-2.** “Azərbaycan Respublikasında turizm-rekreasiya zonalarının yaradılması” mövzusunda Respublika elmi-praktiki konfransının keçirilməsi

**LOT-3.** 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və yeni təqvim ili münasibətilə tədbirin keçirilməsi

Tender iştirakçılarına təklif edilir ki, bu layihə üzrə öz təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə, yazılı surətdə (Bakı şəhəri, Nərimanov rayonu, Koroğlu Rəhimov küçəsi, məhəllə 822/23)təqdim etsinlər.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıda göstərilən sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (ərizə);*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi zərfdən açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərfdən açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *iddiaçının ixtisas göstəricilərinə dair sənədlər.*

Yuxarıda qeyd olunan sənədlər (tender təklifi və tender təklifinin təminatı istisna olunmaqla) tender proseduru başlanmasından 7 (yeddi) bank günü əvvəl təqdim olunmalıdır.

Sənədlər Azərbaycan dilində, 2 (iki) nüsxədə tərtib olunmalıdır. (başqa dildə tərtib olunmuş sənədlərə onların Azərbaycan dilində tərcümə edilmiş surətləri əlavə edilməlidir).

İştirak haqqı LOTlar üzrə aşağıdakı məbləğdə təşkil edir:

**LOT -1.100 manat.**
**LOT -2. 100 manat.**
**LOT -3. 100 manat.**

Tenderdə iştirak etmək və əsas şərtlər toplusunu almaq üçün iştirakçılar iştirak haqqını aşağıda göstərilən hesaba köçürməlidirlər:

**VÖEN: 1500817681**
**Hesab: AZ27İBAZ40090019445931153206**
**Bankın adı: ABB ASC Nərimanov filialı**
**VÖEN: 9900001881**
**Kod: 805540**
**Müxbir hesab: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T.: İBAZAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 06 noyabr 2018-ci il, saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 16 noyabr 2018-ci il, saat 17:00-a qədər Koroğlu Rəhimov küçəsi, məhəllə 822/23 ünvanında yerləşən Azərbaycan Turizm və Menecment Universitetinə təqdim etməlidirlər.Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. Tenderdə iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender təklifi zərfləri 19 noyabr 2018-ci il, saat 10:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

Əlavə məlumat almaq üçün aşağıdakı ünvana müraciət etmək olar:

**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Koroğlu Rəhimov küçəsi, məhəllə 822/23, AZ1072**
**Tel: (+994) 55203 25 33**

***Tender komissiyası***


# Məktəb direktorları üçün ixtisasartırma proqramları hazırlanır

## *Bu il 6 mindən çox müəllim yekun qiymətləndirmə imtahanlarında iştirak edib*





“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın qəbulundan ötən 5 il ərzində təhsil sahəsində müsbət dinamika müşahidə olunub, bir sıra əsaslı nailiyyətlər əldə edilib. Bu nailiyyətlərin əhatəliliyinin artması və davamlı xarakter alması isə təhsilin daha əlçatan, keyfiyyətli olmasına zəmin yaradır.

Qeyd edilən bu məsələlər oktyabrın 18-də media nümayəndələri üçün keçirilən “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın 5 ili çərçivəsində “Təhsil işçilərinin əlavə təhsilinin təşkilində yeniliklər” mövzusunda seminarda vurğulandı.

### *Müəllim işləmək arzusunda olanların sayı 3 dəfə artıb*

“2018-2019-cu tədris ili üçün müəllimlərin işə qəbulu üzrə müsabiqədə 50 minə yaxın namizəd iştirak edib, 5000-dən artıq namizəd müəllim adını qazanaraq işə qəbul olunub”.

Bu sözləri seminarda iştirak edən Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun direktoru Vəfa Yaqublu “Təhsil işçilərinin əlavə təhsilinin təşkilində yeniliklər” mövzusundakı təqdimat zamanı söylədi.

İnstitut direktorunun sözlərinə görə, ötən illərlə müqayisədə müəllim işləmək arzusunda olanların sayında 3 dəfə artım müşahidə edilməsi təsadüfi deyil. Ali məktəblərə sonuncu qəbul imtahanında isə 500 və daha artıq bal toplayan abituriyentlər arasında 2090 nəfər müəllim peşəsini seçib.

### *Bəzi pedaqoqlar yeniliklərin səmərəli tətbiqi yollarını bilmirlər*

Daha sonra çıxış edən Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun direktor müavini Nəzakət Mehdiyeva müəllimlərin diaqnostik qiymətləndirilməsi nəticəsində ortaya çıxan bəzi problemləri sadaladı. O qeyd etdi ki, müəllimlərin müəyyən dövr ərzində tədris etdiyi fənnə aid yeniliklərlə tanış olmaması, elmin sürətli inkişafı, informasiya bolluğu, dərsliklərin yenilənməsi ilə əlaqədar müəllimlərin sistemli peşəkar inkişaf ehtiyacları aşkara çıxmış oldu.

Qeyd edildi ki, dərsdinləmələr, məktəbdaxili və kənar monitorinqlərin nəticələrinin təhlili müəllimlərin yeniliklərə qarşı çıxmadığını, sadəcə onların səmərəli tətbiqi yollarını bilmədiklərindən onu müvafiq şəkildə həyata keçirmədiklərini göstərir. Nəticədə müəllimlərin ixtisasartırmasına ehtiyac yaranır. Dövlət hesabına 2015-2018-ci illərdə ixtisasartırma təlimləri aparılır.

### *Şagird təfəkkür bacarıqları tələb edən tapşırıqlarda çətinlik çəkir*

Nəzakət Mehdiyeva qeyd etdi ki, son illərdə buraxılış imtahanları nəticələrinin davamlı təhlili göstərdi ki, ana dili və riyaziyyat fənlərindən şagirdlərin əsas çətinlikləri məntiqi, tənqidi və yaradıcı təfəkkür bacarıqlarını tələb edən tapşırıqlarda olur.

Belə ki, riyazi situasiyaların həllini, fikrin əsaslandırılmasını tələb edən tapşırıqları yerinə yetirmək üçün şagird bu fəaliyyətləri illər ərzində dərs prosesində təkrar-təkrar etməlidir. Bu isə yalnız səriştəli müəllimin planlı fəaliyyətinin nəticəsi ola bilər. Beynəlxalq qiymətləndirmə tədqiqatları nəticələrinin təhlili göstərdi ki, şagirdlər nəzəri bilikləri yoxlayan sualları rahat cavablandırdıqları halda, oxuduğunu təhlil etməkdə, həyati situasiyalar üzərində riyazi və təbiət fənn bacarıqlarını nümayiş etdirməkdə çətinlik çəkirlər. Səbəb məktəblərdə biliklərin verilməməsi deyil, biliklərdən müvafiq şəkildə istifadə etmək bacarıqları üzrə aparılan işin səmərəliliyinin aşağı olmasındadır.

### *İlin sonunadək daha 25,182 nəfərin qiymətləndirilməsi planlaşdırılır*

Direktor müavini bildirdi ki, hazırda məktəb direktorları üçün də ixtisasartırma proqramları hazırlanır və sınaqdan keçirilir.

Təhsildə idarəetmə və təşkilatçılıq, sənədlərlə iş mövzuları üzrə təlim proqramları keçirilməsi nəzərdə tutulub. Proqram üzərində müəyyən düzəlişlər edildikdən sonra geniş şəkildə tətbiqinə başlanacaq. Bu təlimlər minimum 36 akademik saatı əhatə etməlidir.

Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun direktor müavini Namiq Nağıyev isə bu il 2 şəhər və 32 rayonda fənlərin məzmunu üzrə 12050 müəllimə ixtisasartırma təlimi keçirildiyini söylədi. Ümumilikdə isə 2015-2018-ci illərdə 29 mindən çox müəllim ixtisasartırma təlimlərinə cəlb olunub. Cari ildə bu günədək 6 074 müəllim yekun qiymətləndirmə imtahanlarında iştirak edib. İlin sonunadək daha 25 182 nəfərin qiymətləndirilməsi planlaşdırılır.

Qeyd edək ki, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın qəbul olunmasının 5 illiyi münasibətilə media nümayəndələri üçün seminarlar davam edəcək. Növbəti seminar Mingəçevirdəki “ASAN Peşə” Təhsil Mərkəzində olacaq.

***Fərizə ƏHMƏDOVA,***
***“Azərbaycan”***

# İşğalçı dövlət yol ayrıcındadır: ya faşizm çökəcək, ya da ki, Ermənistanın özü dağılacaq

Dünən Beynəlxalq Mətbuat Mərkəzində keçirilən mətbuat konfransında moskvalı politiloq-alim Oleq Kuznetsov bir daha hamının Ermənistanda göz yumduğu faşizm mövzusuna qayıtdı. Qeyd olundu ki, əvvəlki brifinqlərdə açıqlanan faktların 3 dildə hazırlanması nəzərdə tutulsa da, 20 dilə tərcümə edilib yayılmışdır.

Mətbuat konfransında rusiyalı telejurnalist Yevgeniy Mixaylovun bu mövzuda qısametrajlı filmi nümayiş etdirildi. Filmin müəllifi də O.Kuznetsov kimi Qaregin Njdeyə abidənin ucaldımasını heç də Ermənistanın daxili işi olmadığını bildirdi. Müasir dünya düzənində baş verən siyasi hadisələr gərginləşdikcə, Rusiyaya qarşı təzyiqlər artdıqca, Kollektiv Təhlükəsizlik Şurasına daxil olan ölkələrdən bəziləri Rusiyaya dəstək vermək, həmişə and içdikləri birliyə sədaqət nümayiş etdirmək əvəzinə, gözləmə mövqeyini tutdular, bəzi hallarda isə göz qırpmadan xəyanətə də getdilər. Ermənistan kimi yaranması və mövcudluğu Rusiyadan asılı olan dövlət bir andaca Rusiyanın rəqibləri ilə qol-boyun oldu, ona arxa çevirməkdən də çəkinmədi. Rusiyada yaşayan erməni diasporu şimal qonşumuzu əvvəl də, indinin özündə də Türkiyə və Azərbaycanla düşmənçiliyə sövq etməyə çalışır, burada ciddi kapital qazanan erməni millətçiləri isə eyni zamanda, Rusiyanın dövlət siyasətinin əleyhinə gedişlər edirlər.

Oleq Kuznetsov mətbuat təmsilçilərinə bildirdi ki, onun bu dəfə dedikləri yenilikdən daha çox məlum faktlara fərqli yanaşmadan ibarətdir. Ermənistanın milli qəhrəman elan edib abidə ucaltdığı Qaregin Njde dövlətə qarşı cinayət törədən canidir. Dediklərimizi sübuta yetirmək üçün kifayət qədər materiallarımız var. Onların böyük bir hissəsini sizə təqdim etmişik. Bu gün onu diqqətə çatdırmaq istəyirik ki, Hitlerlə əməkdaşlıq edən erməni nasistləri bəşəriyyətə qarşı ağır cinayətlər törədiblər. Bolqarıstanda da Njdeyə heykəl qoyulmuşdur. Rusiya dövlətinin arxiv fondlarında materialları araşdıranda görürük ki, bu ölkədə Njdeyə heykəl qoyulması bütün beynəlxalq normalara ziddir. Çünkü Njde bu ölkənin vətəndaşı kimi Bolqarıstanın əleyhinə çıxıb. Hətta 1944-cü idə bu və bir sıra başqa qonşu ölkələrdə siyasi vəziyyətlə bağlı faşist Almaniyasının xeyrinə casusluq etmişdir. Njdenin özü də, onunla birlikdə nasist Almaniyasının kəşfiyyat orqanlarına casusluq edən digər erməni millətçiləri də ifadələrində göstərirlər ki, Njde bolqar vətəndaşı olsa da, öz ölkəsinə qarşı casusluq edib və onun keçmiş SSRİ-də 25 il təkadamlıq kameraya atılması da layiq olduğu cəzadır.

Mətbuat konfransında o da vurğulandı ki, faşist Almaniyasının ideologiyası necə tam məğlubiyyətə uğradısa, Ermənistanda da eləcə nasizm çökməlidir. Əgər bu baş verməsə, Ermənistan dövlət kimi özü dağılacaq. Rusiyalı alimin və sənədli kinemotoqrafçının mövqeyi belədir. Bu gün Ermənistanda bütün ideologiya və ədəbiyyat faşist ideologiyası üzərində qurulmuşdur. Yaxın Şərqdən gələn nasist əqidəli terroristlər Ermənistan və Azərbaycan ərazilərində azərbaycanlılara qarşı soyqırımları törətdilər, etnik təmizləmələr həyata keçirdilər. Tarix bu hadisələrin yenidən qiymətləndirilməsini tələb edir. Bu baxımdan diqqət çəkən odur ki, Rusiyada artıq mövqelər dəyişir. Əgər ruslar əvvəl Qarabağda baş verənlərə ermənilərin gözü ilə baxırdılarsa, indi belə deyil, Azərbaycanın haqq səsi daha ucadan, daha qüvvətlə eşidilir.

***“Azərbaycan”***


## Azərbaycan Turizm və Menecment Universitetinin 3 LOT üzrə elan etdiyi açıq tenderə dair

## Bildiriş

LOT-1. “Müasir dövrdə effektiv idarəetmənin problemləri” mövzusunda respublika elmi konfransının keçirilməsi

LOT-2. ATMU-nun illik elmi-tədqiqat işlərinin yekununa və turizm-rekreasiya zonalarının yaradılması perspektivlərinə həsr olunmuş konfransın keçirilməsi mətni aşağıdakı kimi oxunmalıdır:

LOT-1. “Müasir dövrdə effektiv idarəetmənin problemləri” mövzusunda Respublika elmi-praktiki konfransının keçirilməsi

LOT-2. “Azərbaycan Respublikasında turizm-rekreasiya zonalarının yaradılması” mövzusunda Respublika elmi-praktiki konfransının keçirilməsi

Əlavə məlumat almaq üçün aşağıdakı ünvana müraciət etmək olar:

**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Koroğlu Rəhimov küçəsi, məhəllə 822/23, AZ1072**
**e-mail: p.isgandarov@atmu.edu.az**
**Tel: +99455 203 25 33**

***Tender komissiyası***

# İnformasiya təhlükəsizliyi əlbir fəaliyyət tələb edir

İstənilən təhlükəsizlik, hətta fiziki təhlükəsizlik belə informasiya əsasında qurulur. İnformasiya təhlükəsizliyi Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Mərkəzi Elmi Kitabxanasının (MEK) 2015-2019-cu illər üçün müəyyən etdiyi strateji hədəflər sırasında vacib yer tutur. Bu hədəflər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və AMEA-nın prezidenti akademik Akif Əlizadənin iştirakı ilə 2014-cü ilin may ayında MEK-in yeni binasının açılışı zamanı təqdim olunmuş Milli Rəqəmsal Yaddaş və Vahid İdarəetmə Sistemi layihələri əsasında formalaşdırılımışdır.

Ümumilikdə informasiya təhlükəsizliyi kibertəhlükəsizlik ilə yanaşı informasiyanın kontent təhlükəsizliyini də nəzərdə tutur. İTU təşkilatının qiymətləndirməsinə əsasən, Azərbaycan kibertəhlükəsizlik indeksinə görə 25 indikator üzrə 165-dən 48-ci pillədədir. Bu, özündən öndə ABŞ, İsrail, Kanada, Sinqapur, Koreya, Çin, Almaniya, İngiltərənin və özündən sonra Kipr, Litva, İran, Macarıstan, Qazaxıstan, Vatikanın olması ilə Azərbaycan üçün uğurlu göstəricidir. Kibertəhlükəsizlik indeksi isə, öz növbəsində, ölkənin dünya siyasətinə təsir qüvvəsinə öz töhfəsini verir.

Kibertəhlükəsizlik kontent təhlükəsizliyi məqsədi olmadıqda əhəmiyyətini itirir. Kontent təhlükəsizliyi informasiyanın ideyasının, prinsiplərinin, mövqeyinin, mənafeyinin, formatının, anlaşılma dərəcəsinin, təsir qüvvəsinin, çatdırılma qaydalarının, yayım miqyasının və mühafizəsinin hazırlanması üzrə tədbirlər sisteminə deyilir. Kibertəhlükəsizlik göstəricilərindən fərqli olaraq, informasiya təhlükəsizliyi strategiyaları ölkələr üzrə müqayisə edilmir, əsasən mədəniyyət, maliyyə, səhiyyə, idarəçilik və başqa ayrı-ayrı sektorlar üçün hazırlanır və tövsiyə olunur.

İnformasiya təhlükəsizliyi tədbirlər sistemi göstərilən ardıcıllıqda əhəmiyyəti və üstünlüyü artmaq şərtilə fərd, kollektiv, cəmiyyət və milli səviyyələrdə informasiyanı idarə edən və əlaqələndirən qurum (qurumlar) tərəfindən müəyyənləşdirilir və icraçı qismində müəyyən edilmiş fərdlər və strukturlar tərəfindən hesabatlı formada təmin edilir.

Bu gün informasiya təhlükəsizliyi ehtiyaclarının artım sürəti informasiya texnologiyaları və cəmiyyətin inkişafı sürətindən dəfələrlə artıqdır. Bir tərəfdən informasiya industriyasının bütün məhsullarını - həcmi terabaytlarla ölçülən fərdi kommunikasiyalar, sosial şəbəkələr, elektron media, rəsmi saytlar, portallar, veb-səhifələr, teleradio media kanallarının fəaliyyətini - izləmək, nəzarətdə saxlamaq, daha başlıcası, idarə etmək mümkünsüzdür. Eyni zamanda informasiya təhlükəsizliyinin də, artan mühafizə imkanlarına baxmayaraq, tam şəkildə təmin edilməsi mümkünsüzdür. İDC təşkilatının hesablamalarına görə 2025-ci ildə həcmi trilyon giqabayta çatacaq qlobal məlumat bazasının yalnız 50 faizi təhlükəsizlik tədbirləri ilə təmin edilmiş olacaq. Başqa tərəfdən, müharibə şəraitində yaşayan Azərbaycan kimi ölkə davamlı, düşünülmüş və amansız informasiya müharibəsi şəraitində milli yaddaşını qoruya-qoruya, müstəqilliyini, tarixini və mədəniyyətini tanıda-tanıda yaşayır. Bu səbəbdən Azərbaycanda informasiya istehsalı söz, fikir və mətbuat azadlığının verdiyi geniş imkanların, "informasiya azadlığı" və "informasiya təhlükəsizliyi" kimi dəyərlərin, "informasiya sahibi", "informasiya istehsalçısı" və "informasiya istehlakçısı" kimi anlayışların bir-biri ilə ahəngdə, tənzimlənmiş olmasını tələb edir və yeni məsuliyyətlər formalaşdırır.

MEK elmi kitabxana olaraq informasiya təhlükəsizliyi problemlərinin həllinə nə kimi töhfə verə bilər?

Tarixən kitabxanalar etibarlı informasiya mənbəyi, informasiya mühafizəçisi, yayıcısı, icmanın müzakirə mərkəzi hesab olunub. Adıçəkilən istiqamətdə MEK-in məqsədi ərazi və informasiya təcavüzü şəraitində yaşayan Azərbaycan Respublikasında informasiya təhlükəsizliyinin kontent və texniki baxımdan formalaşdırılmasına öz töhfəsini verməkdir. Bu məqsədlə Mərkəzi Elmi Kitabxana sərbəst elektron resurs hesab edilən və hazırkı zamanda əsas axtarış sistemlərinin məlumat sorğusunu cavablandıran müxtəlifdilli vikipediyalarda Azərbaycanın tarixinə, mədəniyyətinə dair, Azərbaycan Respublikası Prezidentinin önəmli tarixlərə dair imzaladığı sərəncamların icrasına dair məqalələr yerləşdirir və mövcud vikiməqalələri redaktə edir. Misal olaraq 2018-ci ildə "AXC-100", "Milli mətbuat-100", "Milli Ordu-100", "Azərbaycanın Milli qəhrəmanları" və başqa mövzularda yerləşdirilmiş 1000-ə yaxın məqalənin adını çəkmək olar. Eyni zamanda MEK ölkə üzrə vikitəlim mərkəzinə çevrilib və AMEA-nın institut və təşkilatları da daxil olmaqla, Vikipediyada məqalələrin yaradılması və redaktəsi üzrə məsələnin ölkə maraqlarına xidmət etməsini də nəzərə alaraq ödənişsiz təlimlər keçir, YouTube sosial şəbəkəsində Azərbaycan dilində videotəlimlər yerləşdirir və Vikipediyanın əsas qaydalarını Azərbaycan icması üçün tərcümə edib istifadəyə verir. Bütün bu fəaliyyətlər MEK-in "Vikipediyanın işlək modeli" çərçivəsində reallaşdırılıb.



Azərbaycan tarixi və mədəniyyəti hər gün müxtəlif təhrif, yalan və başqa formada informasiya təcavüzləri ilə üzləşir. Kibercəmiyyətin dinamik inkişaf etdiyi dövrdə dünya ictimai rəyi çap mediasından daha çox sosial media səhifələrindən bəhrələnir və dəfələrlə artıq sürətlə formalaşır. Bu təcavüzlərə ləngimədən kəsərli arqumentlər və əlçatan mənbələr ilə qarşı durmaq çətindir. Hazırda rəqəmsallaşdırılmış e-resurslar arasında Azərbaycan üçün yüksək əhəmiyyət kəsb edən məlumatlar pərakəndə şəkildə müvəqqəti portallarda, saytlarda, arxivlərdə, bazalarda yerləşdirilir. Eyni zamanda, informasiya məkanında əhəmiyyətli, lakin rəqəmsallaşdırılmamış və sistemləşdirilməmiş şəkildə hərəkət edən məlumat da çoxdur. Ehtiyac yarandıqda bu məlumatların sistemli şəkildə aşkarlanması və istifadəyə verilməsi mümkünsüz olur. Ən vacibi isə, informasiyanın etibarlı olub-olmaması barədə sosial media, sərbəst elektron resurslar və sadə internet istifadəçilərində heç bir məlumat olmur. Nəticədə informasiya güclü silah kimi səfərbər oluna bilmir. Bu səbəbdən Mərkəzi Elmi Kitabxana Azərbaycana aid informasiyanın idarə oluna bilən və əlaqələndirilə bilən strateji resursa çevrilməsi və informasiya müharibəsində üstünlük qazandıra bilən, təsirli silah formalaşdırılması ehtiyaclarını qarşılaya bilən, kontent və texniki təhlükəsizliyin etibarlı şəkildə kəsişdiyi "Milli yaddaş" modelini təklif edir.

Bu modelə əsasən, elmin müxtəlif sahələrini - tarix, dil, ədəbiyyat, folklor, memarlıq, incəsənət, cəmiyyətşünaslıq, hüquq, fəlsəfə, media, psixologiya, marketinq, informasiya texnologiyaları, tərcümə və s. - təmsil edən mütəxəssislər vahid beyin-ekspert mərkəzində birləşir, sahələr üzrə müstəqil ekspert şuraları və bütün şuraların tabe olduğu vahid idarə heyəti və ya əlaqələndirmə şurası yaradılır.

Şura tərəfindən *"Milli yaddaş"* (və ya *"Milli yaddaşın konseptual əsasları")* adlı Azərbaycan tarixi və mədəniyyətinin əsas prinsipial məqamlarını əks etdirən və mübahisəli sualları birmənalı cavablandıran yığcam, 3-4 səhifəlik sənəd tərtib olunur, etibarlı və kəsərli *"Milli yaddaş: istinadlar, mənbələr"* əlavəsi ilə təmin edilir. Əlaqələndirmə şurasının imzaladığı və təsdiqlədiyi "Milli yaddaş" sənədi öz əlavəsi (istinadları) ilə birlikdə "Milli yaddaş" rəsmi dövlət portalında müxtəlif dillərə tərcümə olunmuş şəkildə açıq istifadəyə verilir, ilk növbədə dövlət qurumlarına bazanın elektron ünvanı bildirilir və *istifadəsi mütləq şəkildə tövsiyə olunur*. Bazanın strateji əhəmiyyətini nəzərə alsaq, ilk növbədə dövlət müəssisələri, diplomatik nümayəndəliklər, diaspor təmsilçiləri, xaricdə fəaliyyət göstərən Azərbaycan mədəniyyət mərkəzləri, Azərbaycan tarixinə və mədəniyyətinə dair ictimai açıqlama, intervü verən məmurlar, müzakirə və mübahisə edən istənilən rəsmi və ya mülki şəxslər, turizm sahəsinin mütəxəssisləri, televiziya, radio, qəzet redaktorları, jurnalistlər, sosial şəbəkələr administratorları istifadə edir. "Milli yaddaş" sənədi etibar və təsir qüvvəsinə görə "ana sənəd"ə çevrilir və müəssisələrdə işçi heyətə, ictimaiyyətlə əlaqələr üzrə mütəxəssislərə verilən təlimatlarda, dərsliklərdə istifadə olunur.

*Yuxarıda səsləndirilənləri ümumiləşdirsək, "Milli yaddaş" İnformasiya Təhlükəsizliyi alqoritmi aşağıdakı kimi görünür:*

1. Respublika rəhbərliyi tərəfindən multiprofilli informasiya təhlükəsizliyi şurası yaradılır.
2. Şura təhlükəsiz informasiya prinsiplərini formalaşdırır.
3. Şura *"Milli yaddaşın konseptual əsasları"* sənədini hazırlayır. Sənəd "Biz kimik, haradanıq, köklərimiz nədir?", "Yaşımız və ərazimiz nədir?", "Əlifbamız, dinimiz, dilimiz, mədəniyyətimiz nədir?", "İnkişaf istiqamətimiz və məqsədimiz nədir?", "Bizim üçün hansı vətəndaş və insani keyfiyyətlər əhəmiyyət kəsb edir?", "Dəyərlərimiz nədir?" suallarını cavablandırır, mövcud və formalaşdırılması arzu edilən vacib prinsipləri əks etdirir.
4. Şura *"Milli yaddaşın konseptual əsasları"* sənədini *"Milli yaddaş: istinadlar, mənbələr"* bazası ilə təmin edir.
5. Adı yuxarıda çəkilən qurumlar və əhali "Təhlükəsiz informasiya" prinsipləri üzrə təlimatlandırılır.
6. Adı yuxarıda çəkilən qurumlar və əhali *"Milli yaddaşın konseptual əsasları"* sənədi və *"Milli yaddaş: istinadlar, mənbələr"* rəqəmsal baza ilə təmin edilir.
7. *"Milli yaddaşın konseptual əsasları"*nın tezisləri dərsliklərdə, informasiya buraxılışlarında, rəsmi çıxışlarda və bəyanatlarda, diplomatik görüşlərdə, ali məktəblərdə, diaspor nümayəndəliklərində, turizm şəbəkələrində, mehmanxanalarda, restoranlarda istifadə olunması vətəndaş borcu və vəzifə öhdəliyi kimi qəbul edilir, icrası nəzarətdə saxlanılır, təhrif olunduqda cəza tədbirləri görülür.
8. Orta və ali məktəblərin tədris proqramına mütləq şəkildə vahid fənn kimi daxil edilir.

Yuxarıda əks olunanlara əlavə olaraq qeyd etmək lazımdır ki, informasiya təhlükəsizliyi bütün qabarıq, gözə çarpan, informasiya baxımından əhəmiyyət kəsb edən halları və hadisələri, hətta statistik göstəriciləri də ölkəyə lazım olduğu kimi operativ şəkildə, arzuolunmaz interpretasiyaları proqnozlaşdıraraq və qabaqlayaraq, neqativ məqamları etiraf edərək, hamıdan öncə şərh etməli, həm də onlara ağlabatan şərh verməlidir. Bu məqsədlə informasiya təhlükəsizliyi laboratoriyası, beyin mərkəzi çalışmalı, bütün qurumların fəaliyyəti əlaqələndirilməlidir. Bu yanaşma milli təhlükəsizlik fəaliyyətinin bir hissəsi olmalı, daha güclü əlaqələndirilmiş, informasiya ilə təmin olunmuş, "pelenqator + eleqant hücum" prinsipi ilə çalışmalıdır. İnformasiya təcavüzü olduqda yuxarıda adı çəkilən qurumlar mümkün qədər çox dilə tərcümə edilmiş eyni tezislə öz şəbəkələrində (təsir dairələrində) çıxış etməlidir.

Milli Rəqəmsal Yaddaş layihəsinin ölkə Prezidentinə təqdim olunmasından keçən 4 il ərzində MRY bazası işlək vəziyyətə gətirilmiş, elmiləşmiş, 2018-ci ildə isə Elmin İnkişafı Fondunun dəstəyi ilə "Milli Rəqəmsal Yaddaş" bazasının proqram platformasının texniki planını hazırlayıb təqdim etmiş, MRY kataloqunun və rəqəmsal bazasının zənginləşdirilməsini davam etdirmiş və istifadəyə vermişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla həyata keçirdiyi dövlət informasiya siyasətinə və Azərbaycanın informasiya təhlükəsizliyinin yuxarıda səsləndirilən məsələlərinin həllinə Mərkəzi Elmi Kitabxana informasiya dəstəyi verməyə, Milli Rəqəmsal Yaddaş bazasının texniki və proqram imkanlarını, eləcə də sərbəst elektron resursların formalaşdırılması üzrə təcrübəsini səfərbər etməyə hazırdır. Bununla bağlı Mərkəzi Elmi Kitabxana Azərbaycan kitabxana-informasiya məkanında fəaliyyət göstərən bütün qurumları Azərbaycan dövlətçiliyi maraqları naminə informasiya təhlükəsizliyi mövzusu ətrafında qüvvələrini birləşdirib əlaqələndirilmiş şəkildə əməkdaşlığa dəvət edir.

***Leyla İMANOVA,***
***Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının direktoru***

# Arxiv quruculuğu yeni mərhələdə

Azərbaycanda arxiv quruculuğunun başlanğıcı ötən əsrin 20-ci illərinə təsadüf edir. Xalqımızın mənəvi sərvətini nəsillərə çatdırmaq, onları qədərincə qorumaq üçün belə bir təşkilatın yaranmasına ciddi ehtiyac vardı. Bütün bunları nəzərə alaraq 1920-ci ilin dekabr ayında Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanov tərəfindən imzalanmış dekretlə Vahid Dövlət Arxiv Fondu yaradılır. Onu da qeyd edək ki, Azərbaycanda yaradılan bu idarə Qafqazda ilk dövlət arxivi hesab olunur. O illərdən bəri az qala bir əsr ötür. Və arxiv dövlət idarəçiliyinin əsas atributlarından birinə çevrilməyə başlayır. Artıq bu təşkilat xeyli şaxələnir, əyalətlərdə filialı yaranır, mühüm funksiyalar yerinə yetirir.

Bu gün Azərbaycan Respublikasının arxiv sisteminə respublika əhəmiyyətli 6 dövlət arxivi, Dövlət Arxivinin 15 filialı, Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi, habelə 55 rayon və şəhər dövlət arxivləri daxildir. Respublikamızda Milli Arxiv Fondu haqqında qanun layihəsinin hazırlanması 1998-ci ildən başlandı. 1999-cu ildə bu qanun layihəsi qəbul olundu. Elə həmin vaxtdan respublika Nazirlər Kabineti və digər icra hakimiyyəti strukturları qarşısında konkret vəzifələr qoyuldu ki, arxiv işinin təkmilləşməsinə hərtərəfli kömək etsinlər. Yeni qanuna əsasən, Milli Arxiv Fondu sənədlərinin dövlətə məxsus hissəsi dövlət mülkiyyəti kimi mühafizə olunur. Dövlət mülkiyyətində olan mühüm sənədlər alqı-satqı, yaxud mülkiyyət formasının dəyişdirilməsini nəzərdə tutan müqavilələrin obyekti ola bilməz. Bu sənədlərdən yalnız qanunvericilikdə nəzərdə tutulmuş qaydada istifadə edilə bilər.

Son illər Milli Arxiv Fondunun yeni əsaslarla təkmilləşməsi üçün xeyli iş görülüb. Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi Əsgər Rəsulovun dediyi kimi, arxiv haqqında yeni qanun bizim imkanlarımızı birəbeş artırır. Qanunvericilikdə müəyyən olunmuş qaydada fəaliyyət göstərən idarə öz funksiyasını dəqiq və operativ yerinə yetirmək üçün nəzərdə tutulan bütün tələblərə əməl edir. Milli Arxiv Fonduna daxil olan sənədlər daim ciddi mühafizə olunur. Sənədlərin növündən və formasından asılı olaraq onların mühafizə müddəti də müxtəlifdir. Məsələn, yeni qanuna görə, respublika dövlət hakimiyyət və icra orqanlarının sənədlərinin idarə arxivlərində saxlanması üçün 15 il, şəhər, rayon hakimiyyət orqanlarının sənədləri üçün isə 5 il müddət müəyyən olunub. Elmi-texniki sənədlər üçün 15 ildən artıq olmayaraq vaxt nəzərdə tutulub. Kino işləri və şəxsi heyətə aid sənədlər üçün isə 75 il vaxt hesablanıb. Ləğv olunmuş dövlət, idarə, təşkilat və müəssisələrin varisi olmadıqda onları müəyyən edilmiş qaydada dövlət arxivlərinə təhvil vermək olar.

Əsgər Rəsulov qeyd etdi ki, Azərbaycanda arxiv quruculuğu sovetlər birliyinin süqutundan sonra daha uğurlu inkişaf yoluna qədəm qoydu. Belə ki, yeni mərhələdə arxivlərin müasir avadanlıqlarla təchizi və sənədlərin mühafizəsi işlərində ciddi dəyişikliklər yarandı. Maddi bazanın nisbətən zənginləşməsi imkanları xeyli artırdı. Ulu öndər Heydər Əliyevin 2002-ci il dekabr ayının 1-də imzaladığı "Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında" fərman bu sahənin inkişafı üçün müstəsna əhəmiyyət kəsb etdi. Həmin fərmanda göstərilir ki, xalqımızın əvəzsiz sərvəti olan arxiv sənədlərinin mühafizəsinə xüsusi əhəmiyyət verilməlidir. Dövlət hakimiyyət orqanlarının, idarə və müəssisələrin informasiyaya olan gündəlik tələbatının ödənilməsi üçün arxiv materiallarından və qorunan sənədlərdən geniş istifadə olunur. Arxivlər tərəfindən sənədlər külliyyatları müntəzəm nəşr olunur. Həmin sənədlər dövri mətbuatda ardıcıl nəşr edilir. Həmin fərmanda qeyd edilir ki, arxiv işi sahəsində indiyə qədər vahid informasiya bazasının yaradılmaması, elektron informasiya daşıyıcılarının imkanlarından qədərincə istifadə olunmaması bəzi problemlər yaradır. Bu gün ona cəhd edilir ki, belə problemlər tezliklə aradan qaldırılsın, hər cür pərakəndəliyin qarşısı alınsın. Bunun üçün hər cür imkan və şərait var.

Xalqımızın tarixinin ilk mənbələr əsasında öyrənilməsində Milli Arxiv Fondunun böyük əhəmiyyəti var. Dövlət arxivlərindən saxlanılan sənədlərdən daha səmərəli və hərtərəfli istifadə etmək məqsədilə onlar üçün axtarış-məlumat sistemi yaradılıb. Arxivlərdə saxlanılan sənədlərin tərkib və məzmunu haqqında yaradılan axtarış-məlumat sisteminə əsasən arxivlərin yaddaş kitabları, xülasələr, kartotekalar və digər məlumat sənədləri daxildir.

Milli Arxiv İdarəsinin rəisi Əsgər Rəsulov daha sonra qeyd etdi ki, "Milli Arxiv Fondu haqqında" yeni qanun bizim imkanlarımızı məhdud çərçivədən çıxardı. Dövlət arxivlərində qiymətli sənədlərin intensiv şəkildə cəmləşdirilməsi onlardan siyasi, iqtisadi, elmi və mədəni məqsədlər üçün istifadə etməyə əlverişli şərait yaratdı. Bu gün tam cəsarətlə deyə bilərik ki, dövlət hakimiyyət orqanlarının, idarə və müəssisələrin arxivə uyğun informasiya tələbləri dolğunluğu ilə ödənilir. Respublikamızın, eləcə də xarici ölkələrin alimləri, elm adamları öz tədqiqatlarında monoqrafiya və dərsliklərin yazılmasında arxiv sənədlərindən qədərincə faydalana bilirlər. Buna tam şərait yaratmaq üçün əlmizdən gələni əsirgəmirik. Çalışırıq ki, arxivlərimizə müraciət edənlər vaxtında operativ məlumat ala bilsinlər. Bu gün arxiv xidmətinin statusu və strukturu müstəqil Azərbaycan Respublikasında gedən dövlət quruculuğu işlərinin tələblərinə uyğunlaşdırılır. Əsasən elektron informasiya bazasının təkmilləşməsinə üstünlük veririk. Biz şəhər və rayon dövlət arxivləri ilə də müntəzəm əlaqə saxlayır, onlara praktiki köməyimizi əsirgəmirik. Arxiv quruculuğunun yeni mərhələsində arxiv işçilərinin sosial müdafiəsinə də xüsusi diqqət yetiririk. Bu gün arxiv işçisi bilikli, müstəqil mühakiməli və hərtərəfli hazırlıqlı mütəxəssis olmalıdır. Belə olanda yeni mühitin tələblərinə və şərtlərinə cavab vermək o qədər də çətin olmur. Ona görə də arxiv işinə cəlb etdiyimiz mütəxəssislərin daim öz üzərlərində işləməsinə də şərait yaradırıq.

"Milli Arxiv Fondu haqqında" yeni qanun dövlət arxiv işçiləri qarşısında uyğun tələblər irəli sürür. Bu qanuna əsasən hüquqi və fiziki şəxslər dövlət arxivlərində saxlanılan sənədlərdən qədərincə istifadə etmək hüququna malikdirlər. Amma belə bir tələb də irəli sürülür ki, vətəndaşlar Milli Arxiv Fondu sənədlərindən istifadə edərkən müəlliflik hüququ barədə qanunvericiliyin şərtlərinə qeyd-şərtsiz əməl etməlidirlər. Fiziki və hüquqi şəxslər arxiv sənədlərindən və sənəd kolleksiyalarından istifadə qaydalarına əməl etmədikdə qanunvericiliyin müəyyən etdiyi qaydalar əsasında məsuliyyət daşıyırlar.

Yeni qanuna əsasən, mülkiyyət formasından asılı olmayaraq, Azərbaycan Respublikasında qanunvericilikdə müəyyən olunmuş qaydada fəaliyyət göstərən idarə və müəssisələrin sənəd fondları həmin təşkilatların mülkiyyətidir. Fiziki şəxslərin sənəd fondları isə onların şəxsi mülkiyyəti sayılır. Bu yeni qanuna əsasən, mülkiyyət formasından asılı olmayaraq, arxiv sənədlərinin mülkiyyətçilərinin hüquqlarına dövlət təminat verir. Ona görə də dövlət orqanları tərəfindən arxiv sənədlərinin götürülməsi və ya müsadirə olunması qanunvericilikdə müəyyən olunmuş qaydada həyata keçirilir.

Bu gün Milli Arxiv İdarəsi arxiv xidmətini yeni tələblər əsasında qurmaq üçün ən mütərəqqi formalara və üsullara istinad edir. Bunun üçün arxivçiliyin milli ənənələrindən də qədərincə istifadə olunur. Az qala bir əsr yaşı olan Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi yeniləşmə dövründə də faydalı işlərini davam etdirir...

***Bəşir ŞƏRİFLİ,***
***"Azərbaycan"***

Talelər

# İşıqlı yolun yolçuları

*Dünyaya gələn insanların heç də hamısı istedad sahibi olmur. Həyatda hünər göstərməyi də hər kəs bacarmır, yaxud qəhrəmanlıq etmək üçün ona fürsət düşmür. Odur ki, tarixdə hamının adı qalmır, ensiklopediyalarda da yalnız seçilmişlər, tanınmışlar haqqında yazılır. Amma hər kəsə təbiət tərəfindən bir sahədə özünü təsdiq etmək üçün müəyyən qabiliyyət verilir. Çalışmaq, halal zəhmətlə dolanmaq, xeyirxahlıq etmək, hörmət, təmiz ad-san qazanmaq isə hamının bacardığı işlərdir. Sadəcə bunları etmək lazımdır və bu, istənilən məkanda, bütün zamanlarda, bütün ictimai quruluşlarda mümkündür.*



Ömrünün mütləq əksəriyyəti keçən əsrə, əmək və ictimai fəaliyyəti isə əsasən sovet dönəminə təsadüf edən Leyla və Həsən Sultanzadə cütlüyü məhz sözügedən əməllərlə yaşamışdır. Həmkarlarının, doğmalarının, onları tanıyanların hamısının xatirəsində mənalı ömür sürmüş insanlar kimi qalmışlar. Bunun özü də böyük şərəfdir. Hərçənd ki, bunlarla yanaşı, adlarının Azərbaycan iqtisadiyyatının inkişafı tarixinə yazılmağına, xidmətlərinin ensiklopediyalarda əks olunmağına da layiqdirlər.

Onlar uzun illər ömür yollarında birgə addımlamış, əsl Azərbaycan ailəsi modeli kimi nümunə ola biləcək birgə həyat sürmüş, layiqli övladlar böyütmüş, nəvələrin nəvazişini çəkmişlər. Bununla bərabər, öz sənətləri, ixtisasları, tutduqları vəzifə ilə dövr, zaman nə qədər imkan vermişdirsə, Azərbaycana, Azərbaycan xalqına o qədər xidmət etmişlər. Əlbəttə, bir-birinə kömək edə-edə, dəstək ola-ola... Şairin "İki ömür yolu - bir dəmir yolu" misrası, yəqin ki, məhz belələri haqqındadır.

Dəmir yolu demişkən, Leyla xanımın işi bilavasitə dəmir yolu ilə bağlı olmuşdur. Doğrudur, bu sahədə çalışacağını əvvəllər heç ağlına gətirməmişdi. Axı o, 1921-ci ildə Bakıda, xalqımızın Kor Əhəd adı ilə tanıdığı mahir qarmonçu Əhəd Əliyevin ailəsində dünyaya göz açmışdı. Həmin qarmonçu Əhədin ki, dahi Üzeyir bəy Hacıbəyli ifasını yüksək dəyərləndirərək onu opera teatrına dəvət etmişdi. Böyük bəstəkar Müslüm Maqomayev, məşhur müğənni Cabbar Qaryağdıoğlu və dövrün digər görkəmli musiqiçiləri də Kor Əhədin sənətinin vurğunu olmuşlar. Xalq el şənliklərində, filarmoniya konsertlərində onun çıxışlarına heyran qalmışdı.

Əhəd Əliyevin musiqi istedadı qızında da özünü göstərirdi. Ancaq ata buna o qədər də əhəmiyyət vermirdi. Nəhayət, günlərin birində görkəmli tarzən, Azərbaycan musiqiçilərinin bir neçə nəslinin müəllimi Əhməd Bakıxanov təkidlə qızın musiqi duyumunu yoxlayır və Əhədə zəmanət verir ki, Leyla gələcəkdə gözəl musiqiçi ola bilər. Ata isə birmənalı olaraq qızının səhnəyə çıxmasına "yox" deyir...

1942-ci ildə Kor Əhəd dünyasını dəyişir. Onun böyük oğlu müharibəyə gedir. Beləliklə, külfətin ağırlığı ailənin ilki olan Leylanın üzərinə düşür. O, tibb sahəsini seçib feldşerlik məktəbini bitirir. Lakin həyat yolları nədəncə Leylanı bu sahədən də başqa səmtə çəkir. Bir müddət məktəbdə kitabxanaçı, müxtəlif idarələrdə statist, şifrəçi işləyir. Hətta arada filoloq olmaq həvəsinə də düşür. 1949-cu ildən isə Azərbaycan Dəmir Yolu İdarəsinin siyasi şöbəsində işlər müdiri kimi çalışır və beləliklə, taleyi həmişəlik polad yollarla bağlanır.

Dəmir yolundan əvvəl dövlət nəzarəti sistemində çalışan Leyla orada Həsən Sultanzadə adlı gənc mütəxəssislə tanış olur. Çox keçmədən ulduzları barışır və onlar ailə həyatı qururlar. Leyla Əliyeva artıq Sultanzadə soyadını daşımağa başlayır.

Gənc olmasına baxmayaraq, həmin vaxtadək Həsən də az çətinlik görməmişdi. 1915-ci ildə Şamaxıda zadəgan ailəsində dünyaya göz açsa da, ermənilərin törətdiyi qırğınlar onları yurd-yuvalarından dərbədər etmişdi. Atası Yusif bəy ailəsi ilə birlikdə əvvəlcə digər bir bölgədə müvəqqəti sığınacaq tapmış, sonra həmişəlik Bakıda məskunlaşmışdı. Həsən elmə, biliyə can atan cavan idi. Əvvəlcə sənaye texnikumunun elektrotexnika fakültəsini bitirib ixtisası üzrə "Azərenerji" sistemində çalışsa da, bununla kifayətlənməmişdi. İstehsalatdan ayrılmadan Azərbaycan Sənaye İnstitutunun Energetika fakültəsinə daxil olmuşdu.

Ayrı-ayrı mühitlərdə böyüsələr də, Leyla Həsəngilin ailəsinə tez qaynayıb-qarışdı. İndi onun Fatma adında iki anası vardı. Yeni təyin olunduğu vəzifədə ilk, o dövrün meyarı ilə sanballı maaşını alanda gətirib qayınanası Fatma xanıma verdi. O isə astaca: "Qızım, xahiş edirəm bu pulu anana - Fatma xanıma ver. Müvəqqəti çətinlikdir..." deyə pıçıldadı.

Beləcə, bu ailənin üzvləri bir-birini anlaya-anlaya, başa düşə-düşə, bir-birinə dəstək ola-ola yaşadılar. Mehribanlıq, şükranlıq evlərinə ruzi gətirir, uğurları Azərbaycan mentalitetinə hörmət və sədaqətdən qaynaqlanırdı. Leyla və Həsən Sultanzadələr öz iş yerlərində getdikcə daha çox etibar və etimad qazanır, vəzifə pilləsi ilə irəliləyirdilər.

Həsən Sultanzadə bir müddət Azərbaycan SSR Dövlət Nəzarəti Nazirliyində nəzarətçi və baş nəzarətçinin müavini, SSRİ Dövlət Təchizatının Zaqafqaziya Müfəttişliyində rəis müavini, respublika Şəhər və Kənd Nazirliyində şöbə müdiri vəzifələrində çalışdı. 1956-cı ildən sonrakı fəaliyyəti isə Azərbaycan SSR Dövlət Plan Komitəsi ilə bağlı oldu. Əvvəlcə bu qurumda böyük mühəndis vəzifəsində işlədi, sonra uzun illər energetika və elektrikləşmə şöbəsinə rəhbərlik etdi.

Bu, asan vəzifə deyildi. SSRİ-nin xalq təsərrüfatında bütün işlər mərkəzlə, Moskva ilə əlaqələndirilir, müəyyənləşdirilirdi. Odur ki, Həsən müəllim tez-tez ezamiyyətlərə getməli olur, ittifaq və beynəlxalq əhəmiyyətli tədbirlərdə iştirak edirdi. Hər il SSRİ Plan Komitəsinin kollegiya iclaslarında respublika xalq təsərrüfatı planlarını təqdim edir və onları müvəffəqiyyətlə müdafiə edirdi.

Belə məqamlarda ailənin ağırlığı Leyla xanımın üzərinə düşürdü. Uşaqları məktəbə aparıb-gətirmək, onların dərslərinə nəzarət etmək, üstəlik, ev işləri... O zaman indiki çoxfunksiyalı paltaryuyan maşınlar və xanımlara məişətdə kömək edən digər elektrik cihazlarının bir çoxu hələ yox idi. Ev işlərini görmək üçün köməkçi tapmaq da dəbdə deyildi. Odur ki, evdə bütün işləri eyni zamanda dövlət idarəsində məsul vəzifə daşıyan bu zəhmətkeş, yorulmaq bilməyən qadının özü görürdü.

Leyla Sultanzadə Ali Partiya Məktəbini bitirmişdi. Azərbaycan Dəmir Yolu İdarəsinin birinci şöbəsində müxtəlif vəzifələrdə çalışmış, sonra uzun illər bu şöbənin müdiri olmuşdur. Onun da işi çətin və məsuliyyətli idi. Lakin xarakterinə xas olan ciddilik, iqtisadiyyatın ayrı-ayrı sahələrində çalışdığı dövrdə topladığı təcrübə ona bu vəzifənin öhdəsindən layiqincə gəlməyə imkan verirdi.

Polad magistrallarda gecə-gündüz hərəkət dayanmadığı kimi, dəmir yolu idarəsində çalışanların da işi və qayğıları bitib-tükənmək bilmirdi. Bir də görürdün gecənin yarısında Moskvadan telefonoqram gəldi və Leyla xanımı təcili olaraq idarəyə çağırdılar. Belə anlarda Həsən müəllim tələsik yuxudan oyanırdı. O, Leyla hazırlaşana qədər tez küçəyə çıxıb taksi axtarır, tapmayanda isə cütlük qol-qola girib Leytenant Şmidt küçəsindən (indiki Rəşid Behbudov küçəsi) dəmir yolu idarəsinə doğru piyada yol başlayırdı... Həsən müəllim bəzən heç evə dəyməyə macal tapmır, səhər açılar-açılmaz oradan da birbaşa öz iş yerinə yollanırdı.

Beləcə, bu iki insan əl-ələ verib Azərbaycan iqtisadiyyatının inkişafına bacardıqları töhfələri verirdi. Biri yolumuzun, biri işığımızın keşiyində dayanmışdı. Onların məsul vəzifələrdə çalışdığı illər ulu öndər Heydər Əliyevin respublikanın rəhbəri olduğu dövrə təsadüf edir. Bu gün yüksək templərlə inkişaf edən, nailiyyətləri bütün dünyada tanınan Azərbaycan iqtisadiyyatı məhz o illərdə yaranan təməl üzərində yüksəlir...

Sultanzadələrin nəvəsi Aleksandriya-Sevinclə həmin illərin yadigarı olan saysız-hesabsız sənədin birini nəzərdən keçirib o birini götürürük. Onlar Leyla xanımın və Həsən müəllimin ömrünü sanki günbəgün əks etdirir. Leyla Sultanzadənin Azərbaycanın fəxri dəmiryolçusu, Həsən Sultanzadənin isə respublikanın əməkdar mühəndisi olduğunu, onların hər ikisinin çoxsaylı fəxri fərmanlar aldığını, medallarla mükafatlandırıldığını təsdiqləyir. Qovluqlarda Sultanzadələrin iştirak etdiyi mötəbər tədbirlərin dəvətnamələri, mandatları da qorunub saxlanır.

Sevinc xanım nənəsini və babasını xatırlayıb kövrəlir. Deyir ki, anasını körpə ikən itirdiyindən atası Çingiz Sultanzadə ilə yanaşı, onun qayğısını nənəsi və babası çəkib:

- Hər işə məsuliyyətlə yanaşan Leyla xanımın çox mehriban davranışı, incə qəlbi vardı. Elə bil od parçası idi. Eləcə də babam... Həmişə rəqəmlərlə işləsə də, incəsənəti çox sevirdi. Yadımdadır ki, Moskvaya ezamiyyətə gedəndə məni də aparırdı və biz Böyük teatrdan tutmuş bir çox yerlərdə tamaşalara baxır, konsertlərə qulaq asır, muzeylərə baş çəkirdik.

Sevinc xanım musiqiçidir. ABŞ-da universitet bitirib, namizədlik dissertasiyası müdafiə edib və 27 il həmin ölkədə yaşayıb, pedaqoji fəaliyyətlə məşğul olub. Ulu babası Kor Əhədin genlərini daşıyan bu xanım Azərbaycan musiqisinin ABŞ-da və digər ölkələrdə təbliği üçün sanballı iş görüb. Hazırda vətəndədir. Azərbaycan Milli Konservatoriyasının doktorantı kimi tədqiqatlar aparır. Elmi işi "Azərbaycan xanəndələri və aşıqlarının səs tellərinin akustik və fizioloji xüsusiyyətlərinin tədqiqi"nə həsr olunub. Demə, illər əvvəl qızın səhnəyə çıxmaq məqamı gələndə nənəsi Leyla xanım vaxtilə atası Kor Əhədin onun özünün səhnəyə çıxması üçün verdiyi "yox" qərarını nəvəsi üçün təkrar edib.

Zarafatyana "tarix təkrar olunur" deyə Sevinc xanım gülümsəyir, sonra isə ciddi tərzdə söyləyir ki, doğmaları onu səhnəyə "buraxmasalar" da, mükəmməl musiqi təhsili almasına və bugünkü nailiyyətlərə çatmasına daim dəstək veriblər. Bəli, bu nəslin, bu sülalənin tarixi təkcə bir məsələdə yox, bir çox digər sahələrdə də təkrar olunur. Bunlar xeyirxah işlər görmək, vətənə, xalqa xidmət etmək, yaxşı ənənələri yaşatmaqdır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Təkrar

## Bakı Şəhər İcra Hakimiyyəti Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin tabeliyində olan bir sıra kanalizasiya sistemi mövcud olmayan ərazilərdə yerləşən körpələr evləri, körpələr evi-uşaq bağçaları, uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evlərindən çirkab suların daşınmasının satın alınması məqsədilə

## açıq tender elan edir

**LOT -1 - çirkab suların daşınması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları yüksək kadr potensialına, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər 50 manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 18 ünvanından ala bilərlər. Əlaqələndirici şəxs; Əsədov Kamran Şövkət oğlu, tel: 492-63-90

**Dövlət Xəzinədarlıq Agentliyi**
**KOD: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Məktəbəqədər Təhsil Müəssisələri İdarəsi**
**İBAN H: AZ27CTRE00000000000002518337**
**VÖEN: 1701374451**
**Büdcə səviyyəsinin kodu: Fond 7Y**
**Büdcə Təsnifatının kodu: 142340**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər.

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflər açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının maşın-mexanizm haqqında məlumatı;*
- *iddiaçının kadr məlumatı.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmalar haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 6 noyabr 2018-ci il saat 18:00-a qədər, tender təklif və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə 16 noyabr 2018-ci il saat 17:00-a qədər Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinə (ünvan: Bakı şəhəri, İstiqlaliyyət küç.,18) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 19 noyabr 2018-ci il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

***Tender komissiyası***

Təkrar

## "Azərişıq" ASC 2018-ci ildə tələb olunan 1 fazalı SMS sayğacların satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1**

1 fazalı SMS sayğacların satın alınması - 400 manat

**"Azərişıq" ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93 daxili (23-32))**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **12 noyabr 2018-ci il saat 16:00**-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **20 noyabr 2018-ci il saat 16:00-**a qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **21 noyabr 2018-ci il tarixdə saat 16:00**-da Ələsgər Qayıbov küç., 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

Təkrar

## "Bakı Metropoliteni" QSC Binəqədi rayonu, Xocasən Sağlamlıq Mərkəzinin ərazisində və "Bakmil" stansiyasının qarşısında abadlıq işlərinin satın alınması üzrə

## *AÇIQ TENDER ELAN EDİR*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 20-dən (əlaqələndirici şəxs: Zakir Hacıyev, telefon: 490-00-91) ala bilərlər.

**LOT-1.** "Bakı Metropoliteni" QSC-nin "Binəqədi rayonu, Xocasən Sağlamlıq Mərkəzinin ərazisində və "Bakmil" stansiyasının qarşısında abadlıq işlərinin satın alınması

**İştirak haqqı - LOT-1 - 300 manat**

**Hesab: AZ98AZRT38050019440010268002**
**VÖEN: 1402871431**
**Bank: AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**M/H: AZ02NABZ01350100000000022944**
**SWIFT: AZRTAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 8 noyabr 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 19 noyabr 2018-ci il saat 17:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi, 20 ünvanına "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 20 noyabr 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***TENDER KOMİSSİYASI***

# Xarici casus həbs edildi - Dövlət Təhlükəsizliyi Xidmətindən əməliyyat

Xarici ölkə vətəndaşı Hasanzada Bahram Nusrat oğlunun xarici xüsusi xidmət orqanı əməkdaşlarının tapşırığı əsasında Azərbaycan Respublikasının dövlət təhlükəsizliyinə qarşı casusluq, dövlət sirrinin ələ keçirilməsi, Azərbaycan Respublikası vətəndaşlarının casusluğa cəlb edilməsi istiqamətində cinayət əməllərinə dair əldə edilən məlumatlar yoxlanılaraq təsdiqini tapıb.

Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, DTX və Dövlət Sərhəd Xidməti tərəfindən həyata keçirilmiş birgə əməliyyat tədbirləri nəticəsində Bahram Hasanzada dövlət sərhədini qanunsuz keçərək ölkə ərazisinə daxil olarkən saxlanılıb. O, Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 276-cı (casusluq) və 318.1-ci (dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilib, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.



Həmçinin müəyyən edilib ki, xarici ölkə vətəndaşı Bahram Hasanzada xarici xüsusi xidmət orqanı əməkdaşlarının tapşırığı əsasında Azərbaycan silahlı qüvvələrində xidmət edən hərbi qulluqçular, ölkə ərazisində yerləşən hərbi-strateji obyektlər, hərbi texnika və silah-sursat, xarici ölkələrlə hərbi sahədə əlaqələr, eləcə də Azərbaycanın dövlət təhlükəsizliyi və müdafiə qabiliyyəti ilə bağlı sair kəşfiyyat məlumatlarını toplamış, bu məqsədlə uzunmüddətli münasibət qurduğu Azərbaycan Respublikası vətəndaşlarının maddi maraq müqabilində xarici xüsusi xidmət orqanı əməkdaşlarının əlaqəsinə cəlb edilməsini təşkil edib.

Hazırda araşdırmalar davam edir.

## İŞİD Suriyada 700 nəfərdən çox adamı girov götürüb

İŞİD terrorçu təşkilatının silahlıları Suriyanın Deyr əz-Zor əyalətində 700 nəfərdən çox adamı girov götürmüşlər. Onların arasında Qərbi Avropa ölkələrinin və digər dövlətlərin vətəndaşları da var. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

Məlumata görə, oktyabrın 13-də terrorçular Bahə yaşayış məntəqəsinin yaxınlığında qaçqın düşərgəsinə hücum edərək 130 ərəb ailəsini girov götürmüşlər. Hazırda onlar ekstremistlərin nəzarət etdiyi Həcin şəhərindədirlər.

İŞİD-in üzvləri girovların azad olunması müqabilində ABŞ-ın başçılıq etdiyi koalisiyanın tərəfində döyüş əməliyyatlarında iştirak edən "Suriya demokratik qüvvələri"ndən əsirlikdə olan silahdaşlarını azadlığa buraxmağı və Fərat çayının şərqində yerləşən ərazilərdən geri çəkilməyi tələb edirlər. Terrorçular bildirmişlər ki, tələbləri yerinə yetirilməyincə hər gün girovları edam edəcəklər.

## Hava əsasən yağmursuz olacaq, zəif şərq küləyi əsəcək

HAVA PROQNOZU

Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var. Cənub küləyi əsəcək. Havanın temperaturu gecə 14-17°, gündüz 19-22° isti olacaq.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, oktyabrın 19-da Abşeron yarımadasında mülayim hava şəraiti gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Havanın temperaturunun gecə 6-11°, gündüz 21-26° isti təşkil edəcəyi gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər ayrı-ayrı yerlərdə duman, çiskin olacaq. Havanın temperaturunun gecə 3-8°, gündüz 10-15° isti olacağı ehtimalı var.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər ayrı-ayrı yerlərdə duman, çiskin olacaq. Havanın temperaturunun gecə 12-16°, gündüz 18-23° isti olacağı proqnozlaşdırılır.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman, çiskin olacaq. Havanın temperaturunun gecə 8-13°, gündüz 16-21° isti, dağlarda gecə 1-6°, gündüz 9-14° isti olacağı bildirilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər ayrı-ayrı yerlərdə duman, çiskin olacaq. Havanın temperaturunun gecə 11-16°, gündüz 20-25° isti olacağı ehtimal edilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər dağlarda duman, çiskin olacaq. Havanın temperaturunun gecə 13-15°, gündüz 20-24° isti, dağlarda gecə 8-10° isti, gündüz 13-18° isti olacağı gözlənilir.

Respublikanın bölgələrində zəif şərq küləyi əsəcək.

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## Haiti Prezidentinin həyatına qəsd



Haiti Prezidenti Jovenel Moiz sui-qəsdə məruz qalmışdır. Hadisə Pon-Ruj şəhərində dövlətin banisi Jan-Jak Dessalinin ölümünün 212-ci ildönümünə həsr olunmuş mərasim zamanı baş vermişdir.

"Haiti Libre" saytının xəbərinə görə, Prezident milli qəhrəman və birinci hökmdar, imperator I Jakın məzarına gül qoyarkən bir qrup naməlum şəxs ona atəş açmışdır. Cangüdənlər dərhal Moizi təhlükəsiz yerə apara bilmişlər. Hökumət üzvlərinə həmçinin bir neçə daş atılmışdır.

Dövlət başçısının ciddi xəsarət almadığı bildirilir. Təhlükəsizlik xidmətinin iki əməkdaşı yaralanmışdır. Hücum edənlər hadisə yerindən qaça bilmişlər. Hazırda onlar axtarılır. Qeyd olunur ki, bu hücum ölkədə kütləvi etiraz aksiyaları fonunda törədilmişdir. Etirazçılar dövlət vəsaitlərini israf etmiş məmurların məsuliyyətə cəlb olunmasını tələb edirlər.

## Krımda faciə qurbanlarının sayı 21-ə çatdı



Krımın Kerç şəhərində Politexnik Kollecində baş vermiş qırğın nəticəsində ölənlərin sayı 21-ə çatmışdır. Bu barədə şəhər administrasiyası başçısının müavini Dilavər Melqaziyev məlumat vermişdir.

Hadisə zamanı ümumilikdə 70 nəfərə yaxın adam zərər çəkmişdir. Onların 21-i həlak olmuş, 50-dən çoxu yaralanmışdır. Ölənlərin 16-sı tələbə, 5-i kollecin əməkdaşıdır. Ölən tələbələrdən 12-si həddi-büluğa çatmamışdır. Yaralıların 10-nun vəziyyəti ağırdır. Onların 4-ü komadadır.

Xatırladaq ki, srağagün kollecin dördüncü kurs tələbəsi Vladislav Roslyakov təhsil müəssisəsində partlayış törətmiş və odlu silahdan atəş açmış, sonra intihar etmişdir.

Faciə ilə bağlı Krımda üçgünlük matəm elan olunmuşdur.

## Fransanın cənubunda təbii fəlakət rejimi tətbiq olundu

Fransanın cənubunda yerləşən Od departamentinin 126 rayonunda daşqınlar üzündən təbii fəlakət rejimi tətbiq olunmuşdur. Bu barədə ölkənin rəsmi qəzeti xəbər verir.

Məlumatda deyilir ki, təbii fəlakət rejimi daşqınlar və torpaq sürüşmələrinin vurduğu ziyana görə tətbiq edilmişdir.

Xatırladaq ki, bundan əvvəl Od departamentinin ayrı-ayrı rayonlarında bir neçə saat ərzində üç aylıq yağıntı norması düşmüşdür. Daşqınların güclənməsinə külək səbəb olmuşdur. Onun sürəti saatda 100 kilometrə çatmışdır.

Son məlumata görə, daşqınlar nəticəsində 14 nəfər həlak olmuşdur.

## Amerikalıların Rusiyaya münasibəti bəlli oldu



Rusiya amerikalıların müttəfiq, yaxud dost hesab etdikləri ölkələr arasında axırdan ikinci yeri tutmuşdur. Bu, "The Economis" jurnalının və YouGov tədqiqat təşkilatının birgə sorğusunun nəticələrindən məlum olmuşdur.

Sorğunun nəticələrinə görə, amerikalıların üçdəbiri Rusiyanı ABŞ-a dostdan çox düşmən hesab edir. ABŞ vətəndaşlarının 31 faizi Rusiyanın siyasətini qeyri-dost sayır. İki faiz əmindir ki, Moskva Vaşinqtonun müttəfiqidir. Sorğuda iştirak etmiş hər on amerikalıdan biri Rusiyanı dost dövlət bilir.

Amerikalıların əksəriyyəti ABŞ-ın əsas müttəfiqləri və dost dövlətlər arasında Kanada, Almaniya, İsrail, Yaponiya, Cənubi Koreya və Böyük Britaniyanın adlarını çəkmişdir.

Sorğuda iştirak edənlərin etimad səviyyəsinə görə Rusiyadan sonrakı yeri KXDR tutmuşdur. Şimali Koreyanı respondentlərin cəmi bir faizi müttəfiq adlandırmışdır. Yeddi faizi isə KXDR-ı dost dövlət hesab etmişdir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparat Maliyyə və iqtisadiyyat məsələləri şöbəsinin əməkdaşları iş yoldaşları Şahin Sadıqova əzizi

**İRADƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərbaycan" nəşriyyatının kollektivi iş yoldaşları İlham Eyyubova anası

**GÜLƏBƏTİN EYYUBOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir .

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8428
Sifariş 3049